Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

11 SENTYABR 2019-cu il

№ 160 (4058)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

## ERMƏNİSTANIN YENİ STATUSU - «ABŞ-SOROS KOLONİYASI», PUTİNƏ 1 MART CİNAYƏTİNDƏ ORTAQLIQ İTTİHAMI...

səh. 8

Radikal müxalifət sıralarından İlham Əliyevə dəstək nümayiş etdirənlərin sayında artım müşahidə olunur

səh. 3

Gürcüstanın qondarma "DQR"dəki saxta seçkiyə reaksiyası çevik oldu...

səh. 10

Öz partiyasından Əli Kərimlinin idarəçiliyinə qarşı ifrat sərt çıxışlar çoxalır

səh. 5

Avropanın enerji bazarında Azərbaycanın mövqeləri yeni güclənmə imkanları tapır...

səh. 11

Klinikalarda həkim qəbulunun qiyməti 50-dən 100 manata qaldırıldı

səh. 14

Aşura mərasimində daha bir xoşagəlməzlik - kiçik uşaqları da valideynlər mərasimə "dartır"

səh. 13

Bağça və məktəblərin qida rasionları necə dəyişdiriləcək?

səh. 13

Sabirabadda qara yara yenidən peyda olur

səh. 15



səh. 3

## Prezidentin ətrafında ümumi siyasi birlik prosesini zədələyən hakimiyyətdaxili səslər - Prezidentin siyasətini anlamamaq, ya dövlətçi müxalifətə yersiz inamsızlıq...



İrəvanın Qarabağ siyasətindən narazılıq Rusiyada külli-ümumi rəyə çevrilir...

səh. 9



"Putin türmədə Köçəryanı görmək istəsə, nə deyəcəyik" - Ermənistan rəhbərlərini çaşdıran sual...

səh. 7

AŞPA-nın Azərbaycandan yenicə qayıtmış məruzəçisi radikal müxalifətin gözləntilərini yerə vurdu

səh. 5

səh. 4

Cinayətlə qazanılmış pulları terrora yönəldənlərlə bağlı Azərbaycanda vahid informasiya bazası...



səh. 6

"Bizi yaxından tanısalar, Əli Kərimlinin yanından bizim təşkilata gələcəklər"...



səh. 7

Tək bu ilin 7 ayında Ermənistanda işsizlərin sayı azı 16 min nəfər artıb - 253 min...



səh. 12

Azərbaycanda unun tərkibi indiyədək dəmirlə niyə zənginləşdirilməyib...



səh. 15

Burun əməliyyatında ölənlərin sayı artır



## İlham Əliyevlə Zelenskinin görüşü hazırlanır

**Azərbaycan və Ukrayna prezidentləri İlham Əliyev və Vladimir Zelenski arasında görüşün keçirilməsi ABŞ-da BMT Baş Assambleyası çərçivəsində mümkündür. Bunu Ukraynanaın Bakıdakı səfiri Vladislav Kanevski bildirib.**

"İlk əlaqə, görüşlər çox vacibdir. Prezidentlərimiz gündəlikdə duran mühüm strateji məsələlərin müzakirəsinə başlamadan öncə şəxsən tanış olmalıdır", - Kanevski çərşənbə axşamı "İnterfaks-Azərbaycan"ın müxbirinin sualına cavabında qeyd edib.

O əlavə edib ki, tərəflər "beynəlxalq meydançada iki ölkənin liderlərinin görüşünün" təşkili üzərində işləyir. "İlk əlaqə üçün kiçik görüşün keçirilməsi çox vacibdir. BMT Baş Assambleyası bu cür meydança ola bilərdi. Prezidentlərin qrafiklərini razılaşdırmaq lazımdır, bu məsələ hələ ki, açıq qalıb", - səfir əlavə edib.

## Səfir Kiyev və Bakının postsovet məkanında münaqişələrin həlli üçün birgə mövqedən çıxış etməsini təklif edir

**Kiyev və Bakı, o cümlədən, iki ölkənin ərazi bütövlüyünün təminatı məslələrində beynəlxalq meydançalardan vahid mövqedən çıxış etməlidir. Baki-xeber.com "İnterfaks-Azərbaycan"a istinadən xəbər verir ki, Ukraynanın Bakıdakı səfiri Vladislav Kanevski belə hesab edir.**



"Münaqişələrin həlli üzrə mənim reseptim - daha qətiyyətli, güclü və stabil olmaqdır. İqtisadiyyat, ordu nə qədər güclü olarsa, bizim rəyimizi daha tez nəzərə alacaqlar", - Kanevski çərşənbə axşamı mətbuat konfransında bildirib. O qeyd edib ki, Azərbaycanın ərazi bütövlüyü məsələsində Ukraynanın mövqeyi "tamamilə ardıcıl və dəyişməzdir". "Ukrayna və Azərbaycan bir-birinin ərazi bütövlüyünü dəstəkləyir, bu dəfələrlə bəyanatlarda sənədləşdirilib", - səfir əlavə edib. O vurğulayıb ki, Azərbaycanda və Ukraynada ərazi münaqişələrinin həlli üzrə danışıqlar uzun illər ərzində davam edə bilər. "Bu günə sanksiyaların tətbiqi mexanizmi daha effektivdir. Lakin tez zamanda reallaşmır və çox zaman tələb edir", - Kanevski bildirib.

Onun rəyinə görə, postsovet məkanında münaqişələrin həlli üçün "bizə həm GUAM təşkilatı çərçivəsində, həm də ikitərəfli məsləhətləşmələrdə birgə mövqe lazımdır".

## Bakıdakı məşhur "Məhsul" stadionu əsaslı təmirə dayandırıldı

**Yasamal Rayon İcra Hakimiyyətindən "Bakı-Xəbər"ə verilən məlumata görə, paytaxtın Yasamal rayonunda yerləşən İdman-Sağlamlıq Kompleksində ("Məhsul" stadionu) və ətraf ərazidə əsaslı təmir və tikinti işlərinə başlanıb.**

Bununla əlaqədar bildirilir ki, Yasamal rayonunun mərkəzində yerləşən və son illər ərzində təmirsiz qalan azsaylı idman məkanlarından biri olan bu stadion artıq uzun illərdir ki, əsaslı təmir aparılmaması, baxımsız qalması səbəbindən pis vəziyyətə düşüb. Buna görə burada hər hansı idman tədbirlərin keçirilməsi mümkünsüz olub, stadion gecə saatlarında tüfeyli həyat tərzi keçirən şəxslərin yığılma yerinə çevrilib və bu da ətraf binalarda yaşayan sakinlərin narazılığına səbəb olub.

Sakinlərin çoxsaylı müraciətləri nəzərə alınaraq, həmçinin stadionu müxtəlif idman yarışları üçün yararlı vəziyyətə salmaq, burada idman qurğularını, ot örtüyünü yeniləmək məqsədilə Yasamal rayonu, İdman-Sağlamlıq Kompleksində ("Məhsul" stadionu) əsaslı təmir işlərinə başlanıb.

## Mübariz Qurbanlı Şağan məscidindəki olaya fikrini bildirdi

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Bakının Şağan qəsəbəsində fəaliyyət göstərən "Qərib Pir" məscidində Azərbaycan şəhidlərinin fotoları əks olunan plakatların sökülməsi ilə bağlı iddialara münasibət bildirib.**

"Trend"in məlumatına görə, Komitə sədri bildirib ki, şəhidləri bir-biri ilə müqayisə etmək düzgün deyil: "Şəhidlik ümumi addır və İslamda ayrılmırlar. Məscidlərdə Aşura günü Qarabağ şəhidləri və digər şəhidlər yad edilirsə, bu tamamilə doğrudur və heç bir dinlə ziddiyyət təşkil etmir. Qafqaz Müsəlmanları İdarəsinin builki fətvasında xüsusilə qeyd olunur ki, İmam Hüseyn əzadarlığı zamanı xütbələrdə Qarabağ şəhidləri də yad edilsin. Kimsə bunu anlamırsa, şəhidlərimizin şəkillərinin orada vurulmasını qəbul etmirsə, yanaşma doğru deyil".

# Nəsimi - 7 böyük ozandan biri

**50 il öncə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə böyük Azərbaycan şairi İmadəddin Nəsiminin (1369 - 1417) 600 illik yubileyi keçirilmiş, bunun həm ölkəmizdə, həm də xaricdə onun həyat və yaradıcılığına maraq artmışdı.**

Ana dilimizdə yaratmış olduğu mükəmməl poeziya nümunələri yüz illər boyunca ozanların, muğam ustalarının dilindən düşməyərək milli mədəniyyətimizin inkişafına misilsiz töhfələr verən qüdrətli sufi şairin əlyazmalarının tədqiqi həmin vaxtdan etibarən genişlənmiş, əsərləri kütləvi tirajla çap edilmişdi. Təsadüfi deyil ki, İmadəddin Nəsiminin təbliğində xüsusi yeri olan film də məhz ulu öndər Heydər Əliyevin sovet Azərbaycanında hakimiyyətdə olduğu zamanda- İsa Hüseynovun (Muğanna) ssenarisi əsasında rejissor Həsən Seyidbəyli tərəfindən 1973-cü ildə çəkilmiş, baş rolun ifaçısı, o dövrdə gənc olan istedadlı aktyorumuz Rasim Balayevin yaratdığı obraz xalqımız tərəfindən böyük sevgi ilə qarşılanmışdı.

Azərbaycan prezidenti İlham Əliyevin 12 yanvar 2004-cü ildə imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncama əsasən işıq üzü görən, oxuculara təqdim və ölkə kitabxanalarına hədiyyə edilən nəşrlər arasında, heç şübhəsiz, Nəsiminin əsərləri də yer almışdı. Hər kəsə o da yaxşı məlumdur ki, dövlət başçımız Nəsimi irsinin müasir humanitar düşüncənin tələbləri kontekstində aktuallığını, milli mədəni-mənəvi dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyətini



nəzərə alaraq içərisində olduğumuz 2019-cu ili "Nəsimi ili" elan edib. Prezidentin bu sərəncamından irəli gələrək il ərzində xalqımızın ədəbi və fəlsəfi fikir tarixində dərin iz qoymuş şair haqqında çox sayda elmi və mədəni tədbir keçirilib, araşdırmalar aparılıb, o cümlədən kütləvi informasiya vasitələrində sanballı məqalələr dərc olunub.

Tədbirlər davam edir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə bir gündə respublikamızda 650 min ağac əkiləcək. Bu barədə yayılan açıqlamadan xəbərdarsınız ki, böyük şairin dünya əhəmiyyətli poeziyasının beynəlxalq aləmdə təbliği, xatirəsinin əbədiləşdirilməsi, Azərbaycanın ədəbi və mədəni irsinin tanıdılması məqsədi daşıyan bu nəcib təşəbbüsə respublikamızın bütün bölgələrində ictimaiyyət nümayəndələri, həmçinin dövlət və hökumət qurumlarının, diplomatik korpusun, icra hakimiyyətləri orqanlarının, qeyri-hökumət təşkilatlarının təmsilçiləri və könüllü gənclər qoşulacaqlar.

Zənnimcə, "Nəsimi ili"nə gözəl töhfələrdən birini də "Youtube" kanalındakı hesabına yerləşdirdiyi son bəstəsi ilə soydaşımız, Azərbaycan əsilli Britaniya sənətçisi Sami Yusif verdi. Onun "Şur" muğamının ladları üzərində gəzişərək ərsəyə gətirdiyi "Nəsimi" kompozisiyası sosial şəbəkələrdə qısa zamanda populyarlaşdı və böyük rəğbətlə qarşılandı. Müntəzəm olaraq Azərbaycana gələn, ötən ilin sentyabrında Heydər Əliyev Fondunun təşkilatçılığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə gerçəkləşən Nəsimi- şeir, incəsənət və mənəviyyat festivalında iştirak etmiş Sami kimi məşhur, açıq konsertlərinə yüz minlərlə tamaşaçı toplanan bir sənətçinin klassik poeziyamızın pərəstişkarı olması, mənəvi dünyamızın incilərini yeni və peşəkar formada bütün dünyaya yayması, əlbəttə, təqdirə layiqdir.

Onun xalq çalğı alətlərimizin müşayiəti ilə, milli, klassik və müasir musiqi elementlərini sintez edərək, xanəndə Təyyar Bayramovun, digər sənət adamlarımızın ifasından, bacarığından uğurla yararlanaraq hazırladığı parçanı internetin verdiyi imkanlar sayəsində işə gələrkən yolda dinlədim. Bir dinləyici kimi zövqümü oxşadı. Odur ki, türk dünyasının 7 böyük ozanından biri sayılan Nəsiminin "Sığmazam" rədifli qəzəlinin bu cür ecazkar, ovsunlayıcı musiqiyə çevrilməsinə əmək sərf etmiş hər kəsə təşəkkür edir, böyük məmnuniyyətlə videosunu sizlərlə öz Facebook dostlarımla paylaşıram. Paylaşıram həm də ona görə ki, Heydər Əliyevin və İlham Əliyevin Nəsimi kimi tarixi şəxsiyyətlərimizi, mütəfəkkirlərimizi cəmiyyətimizin və bütün dünyanın nəzərində ucaltmaqla standart məkan qəliblərinə sığmadıqları barədə qənaətimi bir daha sizlərlə bölüşüm:

***Əli Həsənov***
***Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi***

# Eldar Sultanov Baş Prokurorluqda Siyavuş Novruzovun dediyi istiqamətdə araşdırma aparılmadığını dedi

**Son günlər bəzi kütləvi informasiya vasitələri və sosial şəbəkələrdə Milli Məclisin komitə sədri, YAP-ın icra katibinin müavini Siyavuş Novruzovun keçmişdə uzun müddət nazir vəzifəsində çalışanların tənqid etməsi, onların milyardları taladıqları və bu gün mövqesizlik nümayiş etdirmələrini bildirməsi ilə bağlı müxtəlif fikirlər yayılıb.**

Bəziləri Siyavuş Novruzovun bu açıqlaması ilə



bağlı hüquq-mühafizə orqanları tərəfindən araşdırmalar aparılmasının vacibliyini vurğulayıblar.

"Trend" Baş Prokurorluq tərəfindən deputatın səsləndirdiyi fikirlərlə bağlı araşdırmaların aparılıb-aparılmadığını dəqiqləşdirmək üçün qurumun Mətbuat xidməti ilə əlaqə saxlayıb.

Agentliyə özəl açıqlamasında Baş Prokurorluğun rəsmisi Eldar Sultanov bildirib ki, qeyd edilən məsələlərlə əlaqədar Baş Prokurorluqda hər hansı araşdırmalar aparılmır.

**Son vaxtlar hakimiyyətə yaxınlığı ilə seçilən bəzi tanınmış şəxslərin mediaya verdikləri müsahibələrdə işlətdikləri fikirlər həm cəmiyyət, həm də hakim komandanın özü tərəfindən birmənalı qarşılanmır. Hətta bu xüsusda elə ziyanlı fikirlər olur ki, onlar ölkə rəhbərliyinin, mövcud hakimiyyətin yürütdüyü siyasətlə daban-dabana zidd sayılır.**

# Prezidentin ətrafında ümumi siyasi birlik prosesini zədələyən hakimiyyətdaxili səslər - Prezidentin siyasətini anlamamaq, ya dövlətçi müxalifətə yersiz inamsızlıq...

## *Qabil Hüseynli: "Belə zərərli fikirləri onlar ölkə Prezidentinin hansı siyasəti yeritdiyini yaxşı bilmədikləri üçün səsləndirirlər"*



Məsələn, bəzilərinin vaxtilə radikal müxalifətdə olub, sonra hakimiyyətə konstruktiv mövqe sərgiləyən insanlara düşmən deməsi, təbii ki, siyasi palitrada yaxşı qarşılana bilməz. Bu, ölkə başçısının ətrafında siyasi toplanma prosesinə mane olan mövqedir.

Təsadüfi deyil ki, hakimiyyətin yuxarı eşalonunda təmsil olunan məmurlar dərhal hakim komandanın içindən səslənən həmin zərərli fikirləri təkzib etdilər və həmin mövqelərin hakimiyyətin yürütdüyü kursla heç bir əlaqəsinin olmadığını bildirdilər. Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov özünün "Facebook" səhifəsində mövzuya belə reaksiya verib: "...Bir daha qeyd edirəm ki, bu prinsiplər dəyişməzdir, Azərbaycan iqtidarı dövlətə və dövlətçiliyə xidmət etmək istəyən hər bir qrup və ya şəxslə dialoqa və əməkdaşlığa açıqdır, öz siyasi rəqiblərini düşmən hesab etmir və onlarla ümummilli məsələlərlə bağlı müzakirə və əməkdaşlığı məqbul sayır".

Mövzu ilə bağlı Baş nazirin müavini, YAP-ın icra katibi Əli Əhmədov da məxsusi açıqlama ilə çıxış edərək məsələyə izah verib. Prezidentin köməkçisi və Baş nazirin müavini bu qəbildən olan fikirlərin YAP-ın və İlham Əliyev iqtidarının mövqeyini əks etdirmədiyini bəyan ediblər.

Maraqlıdır, hakimiyyətə yaxınlığı ilə seçilən bəzi şəxslərin belə məzmunsuz fikirləri səsləndirməsi nə ilə bağlıdır - Prezidentin siyasətini anlamamaq, ya konstruktiv müxalifətə inamsızlıq?

Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə bildirdi ki, belə fikirlərin işlədilməsindən dərin narahatlıq keçirir: "Çox təəssüflə qeyd etməliyik ki, belə fikirləri hansısa müstəqil siyasətçilər yox, məhz hakimiyyətdə təmsil olunanlar işlədirlər. Sözün kim tərəfindən, hansı məqsədlə deyilməsinin böyük önəmi var. Belə bir deyim var: "arpa yeyib cənnətdən keçirlər". Həmin fikirləri işlədənlər məhz o tip adamlardır. Araşdırdıqda məlum olur ki, analoji fikirlərin müəlliflərinin heç normal dünyagörüşü, savadı belə yoxdur. Olsaydı, belə danışmazdılar. Biz niyə öz içimizdə düşmən axtarmalıyıq? Məgər fərqli fikrin daşıyıcısı olmaq düşmən olmaq anlamına gəlir? Özü də bunlar həmin cəbhədən öz tərəflərinə keçənə düşmən deyirsə, sabah kim iqtidara tərəf gələcək? Bəli, belə zərərli fikirləri onlar ölkə Prezidentinin hansı siyasəti yeritdiyini yaxşı bilmədikləri üçün səsləndirirlər. Hakimiyyətin siyasi kursundan xəbərləri yoxdur. Yaxşı ki, hörmətli Əli Həsənov dərhal çıxıb bu məsələyə aydınlıq gətirdi. Bildirdi ki, həmin adamların işlətdiyi fikirlərin YAP və hakim komanda ilə heç bir əlaqəsi yoxdur. Ola bilsin ki, insanlar bir siyasi yolun perspektivsizliyini görüb, hazırkı iqtidara yönəliblər. Bəyəm bunu satınalma kimi dəyərləndirmək lazımdır?

*"Onlar bu iqtidarın daha da möhkəmlənməsi üçün səy göstərmək əvəzinə, onun dayaqlarını laxlatmaqla məşğul olurlar"*

Çox az adam olar ki, pulun, yaxşı güzəranın müqabilində bunu edib. Axı həmin ifadəni bütün konstruktiv mövqedə olanlara şamil edə bilmərik. İnsanlar öz dövlətini bu yolla qorumaq istəyirsə, onları lağ, məsxərə obyektinə çevirməməliyik. Bunun adına siyasi korazehinlik deyərdim. Sizi əmin edirəm ki, belə adamların keçdiyi yolu araşdırsaq görərik ki, təsadüfən bu hakimiyyətin yanında yer alıblar. Onlar başqa hakimiyyətlərin dönəmində də itaətkarlıq göstəriblər və gəlib təsadüfən indiki hakimiyyətdə yer tutublar. İndi başqalarına lağ etməsinlər. Onlar bu iqtidarın daha da möhkəmlənməsi üçün səy göstərmək əvəzinə, onun dayaqlarını laxlatmaqla məşğul olurlar. Həmin adamlara ciddi xəbərdarlıq olunmalıdır. Çünki ciddi çaşqınlıq yaradıblar".

***Məhəmmədəli QƏRİBLİ***

**Zaman-zaman radikal müxalifət düşərgəsini tərk edənlərin sayı artır. Bu da sözügedən düşərgənin sıralarının seyrəlməsi ilə müşahidə edilir. Belə ki, bu düşərgədə təmsil olunanlar açıq formada sosial şəbəkədə öz partiya sədrlərinin əleyhinə bəyanat verərək təşkilatı tərk edirlər.**

# Radikal müxalifət sıralarından İlham Əliyevə dəstək nümayiş etdirənlərin sayında artım müşahidə olunur

## *Məhərrəm Zülfüqarlı: "Müxalif partiyaların əksəriyyəti ancaq demaqogiya ilə məşğuldur"*




Tərk edəndən sonra qarşı tərəfdəki düşərgəyə keçməyi bəyan edirlər. Hakimiyyətin kursunu dəstəklədiklərini bildirir və bunu səmimi şəkildə edirlər. Bununla bağlı sərt və tutarlı arqumentlər ortaya qoyurlar.

Müşahidələr göstərir ki, son vaxtlar belə halların sayı artır. Radikal müxalifət partiyalarının sıralarında olmuş adamların kütləvi şəkildə həmin partiyaların sıralarını tərk etmələri bu təşkilatlara olan inamsızlığı özündə ehtiva edir. Bu həm də ölkə vətəndaşlarının bu partiyaların cəmiyyətdə sabitliyi pozmaq istiqamətində fəaliyyətinə bir cavabıdır. Çünki Azərbaycandakı ictimai-siyasi sabitliyi hər bir ölkə vətəndaşı yüksək qiymətləndirir.

Maraqlıdır, ekspertlər bu prosesin səbəbini nə ilə izah edirlər?

Məsələyə münasibət bildirən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, bu ondan qaynaqlanır ki, radikal müxalifət partiyalarının perspektivi yoxdur: "Hər keçən gün bir çoxu bunun fərqinə vardığı üçün, belə təşkilatları tərk edirlər. Adətən kimsə partiyanın üzvü olanda onun rəhbərliyinə, proqram və nizamnaməsinə inanaraq siyasi təşkilata yazılır. Reallıqda bəslədikləri ümidlər doğrulmadıqca, bu zaman oradan uzaqlaşırlar. Azərbaycanda hakimiyyətlə müxalifət arasında müqayisə aparsaq görərik ki, real iş görən hakimiyyətdir. İnsanların gözü qarşısında Prezidentin rəhbərliyi ilə ilbəil müsbət işlər görülür. Müxalif partiyaların əksəriyyəti isə ancaq demaqogiya ilə məşğuldur. Heç bir iş görmədən böhtan atmaqla, qara yaxmaqla məşğul olurlar, xüsusən də radikal müxalifət düşərgəsi. Əlbəttə, illərlə müxalif partiyaların üzvü olanlar bütün bunları görəndən sonra təşkilatı tərk etməli olurlar.

*"Xüsusən də gənc nəslin nümayəndələri ömürlərini bu partiyalarda çürütmək istəmirlər"*

Məntiqli düşünərək iqtidar partiyasına tərəf keçirlər. Ən azından, o xətti müdafiə edirlər. Xüsusən də gənc nəslin nümayəndələri ömürlərini bu partiyalarda çürütmək istəmirlər. Onlar Prezidentə daha çox rəğbət bəsləyirlər, nəinki öz liderlərinə. Görünən odur ki, bu tendensiya ildən-ilə artır. Bütün bunlar təsadüfi deyil. Azərbaycanın regionda nüfuzu ildən-ilə artır, iqtisadi artım yüksəlir. Azərbaycan regionda öz gücünü daha da gücləndirir.

**Əlbəttə ki, bütün bunlar reallıqdır. Bütün bunlar həm də Prezidentə olan inam və rəğbəti artırır. Radikal müxalif düşərgədə olanlar Prezident İlham Əliyevin gördüyü işləri qəbul edir və yanlış yolda olduqlarının fərqinə varırlar. Nəticədə heç kəsdən çəkinmədən müxalif partiyalardan çıxdıqlarını bəyan edirlər".**

***Vidadi ORDAHALLI***

# Azərbaycan həm də mötəbər dünya kəşfiyyat mərkəzlərinin rəsmi görüş yerinə çevrilir

## *Zamin Axundov: "Azərbaycan təkcə yerləşdiyi regionda deyil, həm də daha geniş miqyasda sabitləşdirici rol oynayır"*

**Azərbaycan Prezidenti İlham Əliyev türkdilli dövlətlərin xüsusi xidmət orqanlarının rəhbərlərini qəbul edib. Prezident Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının növbəti iclasının Bakıda keçirilməsindən məmnunluğunu ifadə edib.**



İclasın ikitərəfli və çoxtərəfli əməkdaşlığımızla bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını deyən Prezident İlham Əliyev ölkələrimiz arasında etimada əsaslanan çox sıx qardaşlıq münasibətlərinin mövcud olduğunu deyib. Prezident ölkələrimizin xüsusi xidmət orqanları arasında əməkdaşlığın mühüm əhəmiyyət kəsb etdiyini qeyd edərək, bu təmasların təhlükəsizliyin və regional sabitliyin təmin olunmasındakı rolunu vurğulayıb. Görüşdə çıxış edən qonaqlar Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının növbəti iclasının yüksək səviyyədə təşkilinə görə minnətdarlıqlarını bildiriblər və bu tədbirin ölkələrimizin müvafiq qurumları arasında əlaqələrin və sıx əməkdaşlığın daha da genişləndirilməsi işinə töhfə verəcəyini vurğulayıblar.

Təxminən eyni vaxtda Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev də Bakıya səfər edib, ölkə rəhbərliyi ilə görüşmüşdü. Bütün bunlar Azərbaycanın regional və dünya təhlükəsizlik proseslərində önəmli rol oynadığına bir sübut sayıla bilərmi?

Politoloq Zamin Axundov "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan, paytaxt Bakının dəfələrlə beynəlxalq əhəmiyyətli tədbirlərə uğurla ev sahibliyi etməsi, ayrı-ayrı sivilizasiyalar arasında dialoq və əməkdaşlığı təşviq edən məkan kimi müsbət imic qazanması beynəlxalq ictimaiyyətin böyük rəğbəti ilə qarşılanır:"Balanslı siyasət kursu yürüdən Azərbaycan müxtəlif ölkələr, beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri yürütmək, irimiqyaslı layihələr həyata keçirməklə öz nüfuzunu daha da artırıb, etibarlı tərəfdaş imicini yüksək səviyyəyə qaldırıb. Ona görə də, son vaxtlar ayrı-ayrı güc mərkəzləri də öz aralarında olan problemləri həll etmək, münasibətlərin yeni xəttini müəyyənləşdirmək üçün dünyada unikal dialoq məkanı kimi tanınan Bakıya üz tuturlar. Paytaxtımız dəfələrlə NATO-Rusiya generalları arasında dünya ictimaiyyəti üçün böyük maraq kəsb edən görüşə ev sahibliyi edib. Bir sıra ölkələrin kəşfiyyat rəhbərlərinin də görüşləri üçün Bakının məkan olaraq seçilməsi təsadüfi deyil. Ümumiliklə bu, Azərbaycanın həm region, həm də dünya üçün nə qədər əhəmiyyətli ölkə olmasından xəbər verir. Dövlətimizin apardığı balanslaşdırılmış siyasət xətti, ictimai-siyasi sabitlik, təhlükəsizliyin maksimum qorunması bizə, Ermənistan xaric olmaqla, bütün dünya ölkələri ilə normal münasibətlər saxlamağa, əməkdaşlıq əlaqələrini genişləndirməyə imkan verir. Eyni zamanda, mühüm əhəmiyyətli danışıqların Bakıda aparılması ölkəmizə olan etibar və etimadın göstəricisi sayıla bilər. Bu amil həm də sübut edir ki, Azərbaycan istər regionda, istərsə də dünyada sülhün, təhlükəsizliyin təmin olunmasında vacib aktora çevrilib".

Zamin Axundovun sözlərinə görə, Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən enerji və nəqliyyat dəhlizləri layihələri ölkəmizin bu statusunu daha da möhkəmləndirib:"Belə mühüm görüşlərin Bakıda keçirilməsinin əsas səbəblərindən biri Azərbaycan liderinin şəxsi nüfuzu və dövlətimizin regional və qlobal proseslərdə aktiv rol alması ilə bağlıdır. Azərbaycan nə NATO-nun, nə də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvüdür. Amma ABŞ, Avropa və Rusiya ilə çox yaxşı münasibətləri olan, onların hörmət bəslədiyi ölkədir. Azərbaycan təkcə yerləşdiyi regionda deyil, həm də daha geniş miqyasda sabitləşdirici rol oynayır. Azərbaycan Şərqlə Qərb arasında körpü rolunu oynadığı üçün belə məkana çevrilib".

***Məhəmmədəli QƏRİBLİ***

# Cinayətlə qazanılmış pulları terrora yönəldənlərlə bağlı Azərbaycanda vahid informasiya bazası...

## *Mehman Muradlı: "Bu cür ağır cinayət əməlləri ilə mübarizə aparmaq üçün ən ümdə silah informasiyadır"*

**Cinayət yolu ilə əldə edilən pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi və əlaqəli cinayətlərin Vahid İnformasiya Bazasının təqdimatı keçirilib. Azərbaycan Respublikasında həyata keçirilən məqsədyönlü və sistemli islahatlar nəticəsində hər bir sahədə olduğu kimi, cinayətkarlığa qarşı mübarizə sahəsində də qanunvericilik bazası ən son beynəlxalq standartlar səviyyəsinə çatdırılıb, güclü institusional zəmin formalaşdırılıb.**



Belə səmərəli tədbirlərin davamı kimi, Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsində dəyişiklik edilməsi və cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində bəzi tədbirlər haqqında" 8 oktyabr 2018-ci il tarixli Fərman imzalanmaqla cinayət yolu ilə əldə edilən pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi və əlaqəli cinayətlərin mərkəzləşmiş statistikasının elektron formada aparılmasının təşkili, o cümlədən, həmin cinayətlərlə bağlı statistik məlumatların toplanması, emalı və ötürülməsi üzrə informasiya sisteminin fəaliyyətinin təmin edilməsi Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə həvalə edilib, o cümlədən, aidiyyəti dövlət orqanları tərəfindən qeyd edilən növ statistik məlumatların Baş İdarəyə mütəmadi olaraq təqdim edilməsi nəzərdə tutulub.

Fərmanın icrası ilə bağlı görülən işlər çərçivəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında Baş Prokurorluğun aidiyyəti struktur qurumlarının, o cümlədən, Daxili İşlər, Vergilər, Fövqəladə Hallar və Ədliyyə nazirlikləri, habelə Dövlət Gömrük Komitəsi, Dövlət Təhlükəsizliyi və Dövlət Sərhəd Xidmətlərinin nümayəndələrinin iştirakı ilə cinayət yolu ilə əldə edilən pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi və əlaqəli cinayətlərlə bağlı statistik məlumatların bir mərkəzdə toplanmasını təmin edəcək Vahid İnformasiya Bazasının təqdimat mərasimi keçirilib.

Yeni yaradılan təsisatın cinayət yolu ilə qazanılmış pullar və terrorçuluğun maliyyələşməsinin qarşısının alınmasında nə kimi faydası olacaq?

Hüquqşünas Mehman Muradlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, yalnız ölkəmizi deyil, bütün dünyanı narahat edən bu cinayət əməlləri ilə bağlı ciddi tədbirlərin görülməsi olduqca vacibdir: "Bütün bu işlər Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanan 8 oktyabr 2018-ci il tarixli Fərmana əsaslanaraq görülüb. Azərbaycan dövlətinin bu qanunvericilik təşəbbüsü göstərdi ki, biz cinayət yolu ilə əldə edilən pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi cinayətləri ilə ciddi şəkildə mübarizə aparılmasının tərəfdarıyıq. Bütün bu cinayətlər sıradan törədilən cinayətlər kateqoriyasına aid deyil. Belə cinayətlərlə, adətən, transmilli cinayətkar sindikatlar məşğul olurlar. Bu baxımdan da onların aradan qaldırılması üçün bəzi ölkələrin öz gücləri kifayət etmir. Onlar digər dövlətlərlə bu bəlalarla birgə mübarizə aparırlar. Bu cür ağır cinayət əməlləri ilə mübarizə aparmaq üçün ən ümdə silah informasiyadır.

Ölkənin bütün güc strukturlarının bu mühüm problemlə bağlı informasiyalarının vahid mərkəzdə toplanması çox gözəl addımdır. Həmin bazanın açılışını da izlədim. Ən müasir avadanlıqla təmin edilən baza çox ağır cinayətlərin üstünün açılmasında mühüm rola malik olacaq. Biz ölkə olaraq həmin transmilli cinayətlərlə bağlı əməkdaşlıq etdiyimiz ölkələrlə də informasiya mübadiləsini asan və əlverişli edəcəyik. Yeni yaradılan sistem, bütün mənalarda, ölkəmizə fayda verəcək".

***Məhəmmədəli QƏRİBLİ***

**Məlum olduğu kimi, Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Azərbaycan üzrə məruzəçisi Thorhild Sunna Evarsdottir sentyabrın 5-7-də Bakıda səfərdə olub. Məruzəçi Bakıya səfəri çərçivəsində penitensiar müəssisələrdə bir sıra görüşlər keçirib.**



# AŞPA-nın Azərbaycandan yenicə qayıtmış məruzəçisi radikal müxalifətin gözləntilərini yerə vurdu

## *Elçin Mirzəbəyli: "Bunların heç biri baş vermədiyi üçün, radikallar çox ciddi məyusluqla üzləşiblər"*

Eyni zamanda, səfər çərçivəsində Azərbaycan rəsmiləri və vətəndaş cəmiyyəti nümayəndələri ilə də görüşüb.

Səfərdən sonra məruzəçi qeyd edib ki, səfər səmərəli keçib və gələcək hesabat üçün yaxşı zəmin yaranıb: "Ümid edirəm ki, ilin sonuna qədər hesabat Avropa Şurasının Hüquq Komitəsinə təqdim ediləcək".

Bununla belə, Thorhild Sunna Evarsdottir Azərbaycan hökumətinə təşəkkürünü bildirib. Məruzəçi Azərbaycan hökumətinin onun 5-7 sentyabr tarixlərində Azərbaycanda olduğu zaman səfərini asanlaşdırdığını vurğulayıb: "Mən Azərbaycan hökumətinə rəsmi iclaslar keçirdiyi və ümumiyyətlə, səfərimi asanlaşdırdığı üçün təşəkkürümü bildirirəm".

Thorhild Sunna Evarsdottir səfəri zamanı konstruktiv münasibət, eləcə də hər kəsin Avropa Şurası ilə işləməyə həvəsli olduğunu müşahidə etdiyini bildirib.

O da məlumdur ki, adətən radikal müxalifət belə səfərlərdən öz maraqları üçün istifadə edirdi. Radikal müxalifət təmsilçiləri ümid edirdilər ki, həmməruzəçi tənqidi fikirlər səsləndirər, onlar da bunu əllərində bayraq edərlər. Ancaq, göründüyü kimi, onların bu arzusu boşa çıxdı və məruzəçinin səfərlə bağlı təəssüratları fərqli oldu. Bu minvalla, radikal müxalifətin gözləntilərini yerə vurdu. Bu baxımdan yaranan vəziyyəti ekspertlər necə dəyərləndirirlər?

## *"Bu dəfə "siyasi məhbus" anlayışını biznesə çevirə bilmədilər"*

Məsələyə münasibət bildirən politoloq Elçin Mirzəbəylinin sözlərinə görə, həqiqətən də radikalların məruzəçidən gözləntiləri fiaskoya uğradı: "Radikal müxalifət təmsilçiləri məruzəçinin səfəri ərəfəsində çox fəal idilər. Müxtəlif siyahılar hazırlayırdılar. Hansı ki, həmin siyahılarda şəxsiyyətə qarşı ağır cinayət törədən, terrora cəhd edən şəxslərin adları yer almışdı. O cümlədən, Azərbaycan dövlətinin konstitusion quruluşuna qarşı çıxanların adı var idi. AŞPA-nın Azərbaycan üzrə məruzəçisi isə radikalların biznes maraqlarına xidmət edən siyahıya fikir vermədi. Onlar gözləyirdilər ki, məruzəçi hakimiyyətə yönəlik tənqidi fikirlər səsləndirəcək və radikal müxalifət də bundan öz maraqları naminə istifadə edəcək. Ancaq bunların heç biri baş vermədiyi üçün, radikallar çox ciddi məyusluqla üzləşiblər. Çünki bu dəfə "siyasi məhbus" anlayışını biznesə çevirə bilmədilər. Məruzəçinin real mənzərəni təsvir etməsi radikal müxalifətə ciddi zərbə oldu. Çox güman ki, bundan sonra radikal müxalifət düşərgəsi AŞPA məruzəçisinin ünvanına böhtan xarakterli fikirlər səsləndirəcək. Çünki bunlar üçün obyektivlik anlayışı yoxdur. Kim onların xeyrinə danışırsa, onu qəbul edirlər, əks fikir söyləyəni isə düşmən kimi təqdim edirlər. Budur bunların təfəkkürü, siyasi baxışı".

***Vidadi ORDAHALLI***

**Əli Kərimlinin rəhbərlik etdiyi AXCP-nin fəal üzvlərindən olan Namiq Sadıxlı üzvü olduğu partiyadan çıxma səbəblərini açıqlayıb. N.Sadıqlı Facebook sosial şəbəkəsində AXCP-yə qarşı bir çox sərt ittihamlar səsləndirib.**



# Öz partiyasından Əli Kərimlinin idarəçiliyinə qarşı ifrat sərt çıxışlar çoxalır

## *Rəfail Becanov: "Siz Əli Kərimlinin təşkilatının "vitrininə" fikir verin, görün orada bir nəfər də olsun əsl AXCP ilə dərindən bağlılığı olan adam varmı?"*

N.Sadıqlı yazır: "Dostlar, çox düşündükdən sonra Əli Kərimlinin özəl, şəxsi partiyasından istefa addımını atdım. Bir neçə səbəbi yazacam ki, Cəbhədə qalan, hörmətimi saxlayan və dəyər verdiyim kifayət qədər cəbhəçi dostlarım məndən inciməsinlər. Əksinə, bu addımı əvvəldən atmışdım, bəlkə düzələr deyə gözləyirdim. Səbəbləri, ən azı, 12 bənd olaraq göstərirəm".

Partiya üzvü daha sonra AXCP-dən çıxma səbəbini 12 bənd olaraq sıralayıb:

"1. Siyasi rəqiblərinə qarşı öz əlaltıları vasitəsilə iyrənc söyüşlü kampaniya apardığını qəbul edə bilmədiyim üçün.

2. Azad, fərqli düşüncəli, onu tərifləməyən, tənqid edənlərə hücum etdiyi üçün.

3. Özündə güc tapıb son həbs edilən, hakimiyyəti sərt tənqid edən siyasi məhbus Elvin İsayevə nəinki dəstək, əksinə, ona dəstək verən üzvlərə trol hücumu etdirdiyi üçün.

4. Özünü "demokrat lider" adlandırıb, əksinə, diktatorluğa daha çox meyl göstərdiyi üçün.

5. Neçə ildir 50-dən çox pariya sədrindən heç birinin adını çəkərək birliyə çağırmadığı üçün.

6. Neçə ildir hakimiyyəti dəyişmək deyil, yalnız ana müxalifət kürsüsünü qoruyub saxladığı və təkəbbürlükdən əl çəkmədiyi üçün.

7. Hər üç aydan bir 2 saatlıq mitinq keçirməklə işini bitmiş hesab etmək, partiyadaşlarını günahsız yerə həbsxanalara doldurmaqla özünə müəyyən dividend qazanmağı xoşladığı üçün.

8. Şəxsinə yazdığım məktubları oxuyaraq, cavab verməməklə hörmətsizlik etdiyini gördüyüm üçün.

9. Yeni nəfəs, yeni siyasi simalar ortaya çıxan kimi onlara qarşı "hakimiyyətə işləyirsən" damğası vurmaq, cəmiyyətdə gözdən salmaq üçün sosial şəbəkələr üzərindən min cür qarayaxmalar hazırladığı üçün.

10. Dildə demokratiyadan danışan bu şəxs "mənim yanımda deyilsənsə, bizdən deyilsən" deməklə yalnız tərifləri qəbul edib, tənqid edənləri agent adlandırdığı üçün.

11."Elçi TV YouTube kanalı" vasitəsilə Əli Kərimlilə yanaşı, digər siyasi xadimlərin videoçıxışlarını yayınladığımı həzm edə bilmədiyi üçün.

12. Daha nə yazım, dostlar, çox gözlədim ki, özünü lider kimi cəmiyyətə məcburi sırımaq istəyən bu partiya sədri bəlkə düzələr, bəlkə hakimiyyətə gəlmək üçün siyasi mübarizə adamlarıyla isti münasibətlər qurub birləşməyə başlayar, əksinə, yanıldığımı tam olaraq hiss elədiyim üçün istefa verdim".

Göründüyü kimi, partiyanın fəallarından olan bir şəxs indiyə kimi alterantiv düşərgənin Əli Kərimli barəsində dediklərini təsdiq edir. Uzun müddət onların öz içində olan adam da deyir ki, Əli Kərimlinin partiyasında demokratiyadan əsər-əlamət yoxdur. Partiya üzvünün istefasına səbəb olan məqamlarla bağlı kənar müşahidəçilər nə deyə bilər?

AXCP adına iddia edən digər siyasi təsisatın funksioneri Rəfail Becanov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, istefa verən gəncin sadaladığı səbəbləri biz çoxdan bilirik: "Əli Kərimli bu prosesə çoxdan başlayıb. Hələ mən gəncin yazdığı səbəblər sırasına bir neçəsini də əlavə edə bilərəm. Əli Kərimli bu avtoritar idarəetməyə 1995-ci ildən start verib. AXCP-də əlinə səlahiyyət keçən kimi belə siyasət yürütməyə başladı. Bunun da nəticəsində AXCP-də parçalanmaların əsası qoyuldu. Hazırda Namiq Sadıqlı və digərlərinin Əli Kərimli və onun idarəçiliyi ilə bağlı yazdıqları siyasi cameədə olanlar üçün yenilik deyil. Əli Kərimli nəinki tənqidə, hətta alternativ fikrə belə dözümsüzlük nümayiş etdirir. Həyatlarını bu prosesə verən adamlar təbii ki, ömürlərini orada başa vurmaq istəmirlər. Ayılırlar, görürlər ki, belə siyasətlə uzağa getmək olmaz. Yaranmış vəziyyət hər cür təmiantı olan Əli Kərimlini qane edə bilər, başqalarını yox. Həmin gənclər də öz bacarıqlarını dövlət quruculuğuna sərf etmək istəyirlər. Ancaq onlardan aralanmaq, düz yola qayıtmaq istəyənə birmənalı olaraq satqın damğası vururlar. Axı siyasi təşkilata üzv olanda kiminsə qarşısına belə öhdəlik qoyulmur ki, orada ömürlük qalmalıdır. "Hamı pisdir, biz yaxşıyıq", "bütün seçkiləri boykot edək", "bu dövləti bizdən başqa kimsə düzəldə bilməz" kimi şüarlarla uzağa getmək olmaz. Demokratiyanı necə imitasiya edirlərsə, adamlardan da o qaydada imitasiya edirlər. Artıq bizim dediklərimizi öz daxillərində olanlar da etiraf edirlər. Müqavimət göstərmək lazımdır, adam yerini bilsin, gənclərin beynini pozmasın. Bu avtoritar idarəetmə sona qədər gedə bilməz. Əminəm ki, yaxın zamanlarda Əli Kərimlinin ətrafından daha çox qopmalar olacaq. Siz Əli Kərimlinin təşkilatının "vitrininə" fikir verin, görün orada bir nəfər də olsun əsl AXCP ilə dərindən bağlılığı olan adam varmı? Belə adamlar başqa partiyalarda olsa da, orada yoxdur. Bu şəraiti Əli Kərimlinin özü yaradıb".

***Məhəmmədəli QƏRİBLİ***

**Azərbaycanda onu çox adam tanımırdı. Bir neçə gün əvvəl adı böyük siyasi qalmaqalda hallanana kimi. Birdən-birə sosial şəbəkələri onun şəkilləri bürüdü. Əli Kərimlinin rəhbəri olduğu AXCP-nin bütün arsenalı onun üzərinə hücuma keçdi. Hətta partiya sədrinin özü onun barəsində xüsusi status paylaşdı. Məlum oldu ki, iki gənc arasında düşən virtual mübahisə vəziyyəti gərginləşdirib.**

# "Bizi yaxından tanısalar, Əli Kərimlinin yanından bizim təşkilata gələcəklər"...

## *Əli Kərimlinin hakimiyyətin ”cəza dəstəsi” kimi hay-küyə çevirmək istədiyi gənc əslində kimdir?*



***”Milli Fədailər”in rəhbəri: ”Abdulla Çatlının məzarını ziyarət edib, mesajımızı verəcəyik”***

Çünki tərəflərdən biri AXCP üzvü olub və bizim barəsində danışacağımız şəxs onu "razborkaya" çağırıb. Sonra AXCP üzvü olmayan qarşı tərəfin silahlı fotoları yayıldı, hətta onu silahlı dəstənin başçısı olan kriminal element kimi təqdim etdilər. Bir partiyanın siyasi arsenalı ilə sona qədər mübarizə aparan, mövqeyində stabil qalan bu gənc bizim diqqətimizi də həmin proseslərdən cəlb etdi. Qərara aldıq ki, onunla yaxından tanış olub, müsahibə götürək. "Facebook" üzərində bu niyyətimizi ona bildirdik, çox müsbət yanaşdı. Vədələşdiyimiz vaxt görüşdük. Yanında təşkilatın üzvü olan əlavə iki nəfər də vardı. Hamısı da idmançı görkəmində. Beləliklə, müsahibimiz özünü "Milli Fədailər" təşkilatının rəhbəri kimi təqdim edən Fuad Muradovdur.

**- Fuad, salam, elə bildik bizi silahla qarşılayacaqsan (hamı gülür - M.Q.)…**

- Çox təəssüf edirəm ki, tanımadan, bilmədən bizim barəmizdə o fikir formalaşdırılıb. Bunu da edən bir çevrənin adamları olub. Onların fəaliyyəti belədir ki, kim onlarla eyni cür düşünmürsə, deməli, düşməndir. Elə mənə də düşmən kimi yanaşdılar. Amma mən onları özümə düşmən saymıram. Bilirəm ki, AXCP-də kifayət qədər milli düşüncəli gənclərimiz var. Əminəm ki, onlar bizi yaxından tanısalar, hamısı Əli Kərimlinin yanından bizim təşkilata gələcəklər.

**- Təşkilatınızın adı nədir və hansı amala xidmət edir?**

- "Milli Fədailər" adlı bu hərəkatı biz keçən ildən təsis etmişik. Qurucusu da özüməm. Bizim məqsədimiz və amalımız canından keçməyə hazır olan, milli məfkurəyə sahib gənclərimizi ətrafımıza toplamaqdır. Əsas hədəflərimiz Azərbaycan dövlətinin müstəqilliyini göz bəbəyi kimi qorumaqdır. Lazım gəlsə, bundan yana göz qırpmadan canından keçməyə hazır olmaqdır. Ən başlıca məqsədlərimizdən biri də ölkəmizin ərazi bütövlüyünün təmin olunması istiqamətində dövlətimizə əlimizdən gələn faydanı verməkdir. Ancaq təəssüf edirəm ki, siyasətdən gedə-get vaxtında Əli Kərimli ünvanımıza böhtan atdı, bizi iqtidara bağlamaq istədi.

**- Axı niyə AXCP-nin hədəfinə məhz siz tuş gəldiniz?**

- Adını çəkmək istəmədiyim bir müxalifətçi gənc mənim statusumun aşağısında lazımsız, etikadan kənar bir şərh yazmışdı. Ona zəng vurdum, dedim ki, gəlsin görüşək, həmin məsələni ikilikdə aydınlaşdıraq. O bundan qaçdı, gedib bu səs-küyü salıb, sonra barəmizdə əsassız şikayətlər etdi.

**- Bəlkə əlinizdəki silahdan qorxublar?**

- Bilirsiniz, bu gün biz müharibə şəraitində yaşayırıq. Ərazimizin bir hissəsini müvəqqəti olaraq ermənilər işğal edib. Axı niyə Azərbaycan gəncini biz silahdan qorxutmalıyıq? Bizim əlimizdə silah hər zaman ola bilər və olacaq da. Amma qoy bilsinlər ki, biz həmin silahları heç vaxt öz millətimizə çəkmərik. Onu işlədəcəyimiz bir ünvan var, o da ermənilərdir. Əli Kərimliyə bizim kimi gənclər sərf etmir. Ona zombilər lazımdır ki, virtual aləmdə troll kimi istifadə etsin.

**- Gəl, əldə silah məsələsinə aydınlıq gətirək. Biz hüquqi dövlətdə yaşayırıq. Kim nə vaxt istədi əlinə silah ala bilməz axı. Müharibənin aparılması da sistemli şəkildə olmalıdır. Razısınız?**

- Əli Kərimli və ətrafının yaydığı fotolar indinin deyil. Silahla olduğumun əks edildiyi həmin foto ilə bağlı hüquq-mühafizə orqanlarına geniş izahat vermişəm. Mənim yeznəm Qasımov Novruzun tabel silahı olub. Mən həmin fotonu da onun xidməti otağında çəkdirmişəm. Tez-tez yeznəmi ziyarətə gedirdim. Bu olub 2008-ci ildə. Həmin hadisəyə görə yeznəm DİN orqanlarından xaric edilib. Yəni həmin fotodan mənə qarşı istifadə olunması siyasi şüvənlikdən başqa nəsə deyil. Onlar fotodan istifadə edib, bizi guya hakimiyyətin müxalifətin üzərinə göndərdiyi silahlı dəstə kimi qələmə verirdilər.

**- Hakimiyyətlə heç bir bağlılığınız yoxdur?**

- Hadisələrin ən qızğın vaxtında dövlət adından bu barədə bəyanat verildi və məsələyə tam aydınlıq gətirildi. Bizim hakimiyyətlə necə yaxınlığımız ola bilər ki, hələ təşkilatımız dövlət qeydiyyatına alınmayıb?

**- Ali təhsiliniz varmı?**

- Mən 1989-cu ildən Bakı şəhərində yaşayıram. Atam müharibədə olduğu üçün, biz o vaxt Bakıya köçdük, həmin vaxtdan da burada yaşayıram. Orta məktəbi Bakıda bitirmişəm. 171 saylı orta məktəbin məzunu omuşam. Ali təhsilimi isə Azərbaycan Pedaqoji Universitetinin Tarix fakültəsində almışam. Peşəkar idmanla məşğul olmuşam. Sambo üzrə ciddi nailiyyətlərim olub. Həqiqi hərbi xidmətdə olmuşam. Ön cəbhədə qulluq etmişəm.

**- Sizin məsələ gündəmə gələndən sonra məlum oldu ki, atanız da tanınmış adamdır. Deyilənə görə, "Qazaxlı Alik"in oğlusunuz. Bu doğrudurmu?**

- Bəli, elədir.

**- Atanız bu işlərə nə dedi?**

- Atam daim dövlətçilik mövqeyində dayanıb. Onun heç vaxt siyasi ambisiyası olmayıb. Bütün hakimiyyətlərin dönəmində dövlətin yanında olub. Yəqin bilirsiniz ki, atam Qarabağ müharibəsində rəşadətlə vuruşub.

**- Sizin paylaşımlarınızdan belə görünür ki, milliyyətçi ideologiyanı əsas götürürsünüz. Yanılmıram ki?**

- Tamamilə doğrudur. Ancaq bir az fərqli yanaşmamız var. Biz milliyyətçiliyə əvvəlcə Azərbaycan coğrafiyası prizmasından yanaşırıq. Yəni bizim üçün birinci olan azərbaycançılıqdır. Biz milliyyətçilər içində milliyyətçiyik.

**- Təşkilatınıza üzvlük hansı əsaslarla aparılır, nə qədər üzvünüz var?**

- Bizim təşkilata üzv olmaq üçün, ilk növbədə, Vətənini və millətini qarşılıqsız sevməlisən. Biz kiməsə maddi qazanc, vəzifə, perspektiv vəd etmirik. Özümüzü Vətənin, dövlətin, millətin əsgəri sayırıq. Bu dəyərlərə qulluq edən təmənnasız əsgəri. Biz kəmiyyətə yox, keyfiyyətə üstünlük veririk. 10 milyonluq xalqın içərisindən 100 nəfər həqiqi fədai seçə bilsək, bizə bəsdir. Biz bu dövləti öz anamız kimi sevirik. Ana qocalanda övladına sevgi göstərə bilmir. Onun nəfəsi belə övlada bəs edir.

*”10 milyonluq xalqın içərisindən 100 nəfər həqiqi fədai seçə bilsək, bizə bəsdir”*

**- Yaxanızda nişan var, yəqin təşkilatınızındır. Tarixdə olmuş "Difai" hərəkatının simvolikasına oxşayır. Oxşarlığınız varmı?**

- Həmin təşkilatın yaradıcısı Əhməd bəy Ağaoğlunun yolu hamıya bəllidir. "Difahi" zamanında ilk silahlı partiya kimi qeydə alınmışdı. Bəzi insanlar onu yanlış olaraq terror təşkilatı kimi qəbul edir. Amma belə deyil. "Difai" antiterror məqsədilə yaradılan bir siyasi təsisat olub. Biz də çalışırıq ki, həmin təşkilatı müasir dövrün tələblərinə uyğun şəkildə təkmilləşdirib, gələcək nəsillərimizə ötürə bilək.

**- Biz belə başa düşdük ki, siz daxili siyasi ambisiyalardan uzaq olan bir təşkilatsınız. Hədəfləriniz daha uzaq strategiya üçün hesablanıb. Son hadisələr bir gənc olaraq sizi həvəsdən salmadı ki?**

- Bir daha deyirəm, bizim siyasi ambisiyamız yoxdur. Siyasi ambisiyası olan qurumlar bizim yolumuzu gedə bilməzlər. Biz bu dövlət və torpağa olan təmənnasız sevgimizi heç bir vəzifəyə, kresloya dəyişə bilmərik.

**- Anons veribsiniz ki, yaxın günlərdə Türkiyəyə gedirsiniz və orada Abdulla Çatlının məzarını ziyarət edəcəksiniz. Niyə məhz onun, bununla hansı mesajı vermək istəyirsiniz?**

- Abdulla Çatlı cinayətkar olsa da, dövlətin ən təmiz fədailərindən olub. Biz onun məzarı üzərində erməni düşmənlərimizə müəyyən mesajlarımızı verəcəyik. Bu gün terror dövləti olan Ermənistan bilməlidir ki, qanuni, hüquqi müstəvidə problemləri yoluna qoyub, işğaldan əl çəkməsə, onunla hər bir dildə danışağa qadirik.

**- Biz burda olan müddətdə sizə Fransada mühacir kimi yaşayan Məhəmməd Mirzəlidən zəng, sonra ismarıc gəldi. Nə istəyirdi?**

Ardı var…

***Məhəmmədəli QƏRİBLİ***

**"Biz sammitə hazırlaşırıq. Əminəm ki, erməni-rus əlaqələri bu sammitdən yalnız fayda götürəcək. Bizim yanaşmamız və məqsədimiz budur". Bunu Ermənistan xarici işlər naziri Zohrab Mnatsakanyan erməni mətbuatına açıqlamasında bildirib.**

# "Putin türmədə Köçəryanı görmək istəsə, nə deyəcəyik" - Ermənistan rəhbərlərini çaşdıran sual...



***Aydın Mirzəzadə:** "Ermənistan hakimiyyətinin hazırkı rəhbərliyi həmin suallara cavab vermək iqtidarında deyil"*

Ermənistan XİN-də təşkil olunmuş mətbuat konfransında jurnalistlər Mnatsakanyana sual veriblər ki, Putin həqiqətən də Köçəryana baş çəkmək istəsə, bu, Ermənistan hökuməti tərəfindən diplomatik şəkildə necə qəbul ediləcək və hər hansı dərəcədə erməni-rus əlaqələrinə təsir edə bilərmi?

Mnatsakanyan isə bu suala cavab verməkdən faktiki olaraq imtina edib və bunu belə əsaslandırıb: "Sualınızın "əgər" konteksti onu şərh etməyə məcbur etmir. Biz sammitə hazırlaşırıq. Əminəm ki, erməni-rus əlaqələri bu sammitdən yalnız fayda götürəcək".

Jurnalistlərin "Köçəryan amili hər hansı dərəcədə erməni-rus əlaqələrinə mane olmur" sualına da Mnatsakanyan eyni cavabı verib: "Bir daha təkrar edirəm, dövlətlərarası əlaqələrdə Ermənistan və Rusiya arasında bizim çox aydın formalaşdırılmış gündəmimiz var".

Qeyd edək ki, Köçəryan amilinin Paşinyan-Putin və Ermənistan-Rusiya dövlətlərarası münasibətlərinə təsiri olması ilə bağlı erməni mətbuatında çoxlu məlumat yayılıb. Hətta belə bir məlumat da var ki, Putin Paşinyanın qarşısında iki ölkə arasında münasibətlərin bərpa olunması üçün Köçəryanın azadlığa buraxılması tələbini qoyub. Lakin Ermənistan XİN bu şayiələri şərh etməyib.

Görünən odur ki, Ermənistan rəsmiləri Köçəryan məsələsində çaşqın vəziyyətdədirlər. Adətən belə səfərlər zamanı dövlət başçısının protokolu məlum olur. Yəni prezident hansı görüşlərə qatılacaq, kimlərlə görüşəcək və s. Belə məlum olur ki, Putinin Köçəryanla görüşmək məsələsi hələ tam aydın deyil. Ona görə də sanki Ermənistan rəsmiləri çətin seçim qarşısındadırlar. Bunun reallaşa biləcəyindən ehtiyat edirlər.

*"Rusiya bu ölkə ilə münasibətlərində keçmiş dövrün prinsiplərini qoruyub saxlamağa çalışır"*

Məsələyə münasibət bildirən millət vəkili Aydın Mirzəzadənin sözlərinə görə, Ermənistan hakimiyyəti ikili oyun oynadığı üçün, belə situasiyalarla üz-üzə qalmaqdan çəkinir: "Yəni Ermənistan apardığı "iki stolda oturmaq" siyasətinin acı nəticələrini dadır. Mnatsakanyanın məlum suala cavab verməkdən yayınmasını bununla da əlaqələndirmək olar. Ermənistan hakimiyyəti ikili oyun oynamaqla müxtəlif güc mərkəzlərindən faydalanmaq istəyir. Bu o deməkdir ki, heç bir tərəflə səmimi dost olmaq istəmədiyini hər zaman ortaya qoyur. Rusiya da bütün bunların fərqindədir. Kimin nə deməsindən asılı olmayaraq, Ermənistanın keçmiş prezidenti Robert Köçəryan cinayətkardır. O, Azərbaycan xalqına qarşı törətdiyi əməllərə görə həbsdə olmalı və ən ağır cəza almalıdır. Bu gün Rusiya Ermənistanla münasibətlərində keçmiş dövrün prinsiplərini qoruyub saxlamağa çalışır.

O baxımdan hesab etmirəm ki, bu gün Köçəryan Rusiya üçün çox qiymətli və əvəzedilməz şəxsdir. Sadəcə olaraq Rusiya Ermənistana onunla sıx dostluğun saxlanmasının vacibliyini müxtəlif yollarla çatdırmağa çalışır. Ermənistan hakimiyyətinin hazırkı rəhbərliyi isə həmin suallara cavab vermək iqtidarında deyil. Rusiyanın guya Köçəryana stavka etdiyi ilə bağlı fikirlərə gəldikdə isə, bunu gələcək göstərəcək. İndidən bu barədə hansısa mülahizələr irəli sürmək doğru olmaz".

***Vidadi ORDAHALLI***

**Ermənistanın Baş naziri Nikol Paşinyanın bir sıra məsələlər barədə verdiyi vədlər özünü doğrultmadığı kimi, ölkədə işsizliyin azaldılması ilə bağlı irəli sürdüyü layihələr də reallıqla uzlaşmadı. Bunu ölkənin rəsmi statistik rəqəmləri də təsdiqləyir.**

# Tək bu ilin 7 ayında Ermənistanda işsizlərin sayı azı 16 min nəfər artıb - 253 min...



***Mübariz Əhmədoğlu:** "Ermənistan iqtisadiyyatına sərmayə qoyulsaydı, o zaman yeni iş yerləri açılardı və ən azından, işsizlərin sayı əvvəlki ildən çox olmazdı"*

Erməni mətbuatının yazdığına görə, bu ölkədə işsizlərin sayı artıb. Ermənistan Statistika Komitəsinin hesabatında bildirilib ki, bu il ərzində Ermənistanda 253 600 işsiz qeydiyyata alınıb, ötən il isə bu rəqəm 237 600 nəfərə bərabər olub. Rəsmi rəqəmlərdən belə aydın olur ki, tək bu il ərzində ölkədə işsizlərin sayı 16 min 600 nəfər artıb. Bundan başqa, hesabatda qeyd olunur ki, bu ilin birinci rübündə ölkədə 2 065 600 nəfər əmək ehtiyatı qismində təqdim olunub. Onlardan 1 115 900 nəfəri qadın, 949 700 nəfəri kişidir. O da məlum olub ki, işğalçı ölkədə işaxtaran qadınların sayı kişiləri əhəmiyyətli dərəcədə üstələyir.

Ancaq Ermənistandakı müstəqil ekspertlər hesab edirlər ki, əslində, ölkədəki işsizlərin sayı göstərilən rəsmi rəqəmlərdən daha böyükdür. Görünən odur ki, ötən 1 il 5 ay ərzində Paşinyan işsizliyin azaldılması ilə bağlı heç bir nailiyyət əldə edə bilməyib. Bu onu göstərir ki, Ermənistana investisiya gəlmir, daxilindəki kapital ölkədən axıb gedir, iş adamları yeni iş yerləri açmırlar. Belə olan təqdirdə, Ermənistanda iki prosesin hökm sürməsi labüddür. Ölkədə işsizlərin və ölkədən çıxıb gedənlərin sayı artır. Faktiki olaraq, Ermənistanda hər iki proses müşahidə olunur.

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlunun sözlərinə görə, Ermənistanda real sektorun inkişafı yerində saydığı üçün, işsizlərin sayı durmadan artır: "Bütün bunlar onu göstərir ki, Paşinyan ötən dövr ərzində erməni xalqının vəziyyətini yaxşılaşdırmaq, sosial-iqtisadi irəliləyişə nail olmaq, ölkəyə investisiya cəlb etmək istiqamətində heç bir uğur əldə edə bilməyib. Paşinyan, sadəcə, Statistika Komitəsi vasitəsilə bəzi rəqəmləri manipulyasiya edir. Bəzi rəqəmləri elə təqdim edirlər ki, sanki ölkədə ciddi iqtisadi artım qeydə alınıb. Məsələn, bəyan edirlər ki, Ermənistanın şokolad ixracı 40 faiz artıb. Şokoladdan nə qədər gəlir əldə etmək olar ki, onu belə təqdim edirlər? Bax, belə gülməli məqamlar var. Bu minvalla, əhalini bəzən çaşdıra bilirlər, amma xariciləri çaşdıra bilmirlər. Ona görə ki, xarici investorlar, maliyyə qurumları Ermənistanda iqtisadi cəlbediciliyin çox aşağı olduğunun fərqindədirlər. O üzdən, bu ölkəni geniş tədqiq etməyə ehtiyac yoxdur. Çünki Ermənistanda hər şey bəllidir. Ona görə də Paşinyan manipulyasiya ilə məşğuldur.

*"Bəzi rəqəmləri elə təqdim edirlər ki, sanki ölkədə ciddi iqtisadi artım qeydə alınıb"*

Ermənistan iqtisadiyyatına sərmayə qoyulsaydı, o zaman yeni iş yerləri açılardı və ən azından, işsizlərin sayı əvvəlki ildən çox olmazdı. Ermənistanın bununla bağlı daxili imkanları məhduddur. Ümid qalır xarici sərmayəyə, xarici investorlar da ölkəyə kapital qoymaqda maraqlı deyillər. Çünki ölkədə əlverişli investisiya mühiti yoxdur".

***Vidadi ORDAHALLI***

**Rusiya və Ermənistan arasında münasibətlərin indi heç də hamar olmadığı və Moskvanın İrəvana getdikcə daha çox təzyiq göstərdiyi heç kimə sirr deyil. Belə bir vaxtda Ermənistanın baş naziri Nikol Paşinyana yaxın dairələrin Rusiyaya qarşı tənqid və hədələri artırması vəziyyətin getdikcə gərginləşdiyini deməyə əsas verir.**

# Ermənistanın yeni statusu - "ABŞ-Soros koloniyası", Putinə 1 mart cinayətində ortaqlıq ittihamı...

Erməni ekspert Haqik Hambaryan isə bildirir ki, Paşinyanın "Sasna Tsrer" və "İşıqlı Ermənistan" partiyalarının təmsilçiləri vasitəsilə Rusiya əleyhinə fikirlər səsləndirməsi sonda Ermənistanın özünə vurulmuş ciddi zərbəyə çevriləcək.

Xatırladaq ki, "Sasna Tsrer" rəhbəri Jirayr Sefilyan Rusiyanı sərt tənqid edib və Ermənistanın bu ölkədən qurtulmasının vaciblyini bəyan edib. Haqik Hambaryan belə mövqeynin Rusiyada sərt qarşılandığını və İrəvanın buna görə cavab verməli olacağını qeyd edib. Politoloqun sözlərinə görə, Ermənistandakı hakimiyyət dəyişikliyindən sonra Ermənistan və Rusiya arasındakı əlaqələr bir o qədər də hamar deyil: "Bunu hətta inqilabçı eyforiyadan xilas olmamış bir çoxları da başa düşüb. Mən inqilabdan sonra erməni-rus əlaqələrində baş vermiş hadisələri açıqlamayacam. Son dövrlər baş vermiş problemlərə toxunacam. Bu problemlərdən ən vacibi Ermənistanın keçmiş prezidenti Robert Köçəryanın həbs olunması məsələsidir. Bu məsələ lap əvvəldən erməni-rus əlaqələrini gərginləşdirdi. Bundan başqa, Ermənistan Məhkəmə Aktlarının Məcburi İcrası Komitəsinin sabiq rəisi Miqran Poqosyanın erməni hüquq-mühafizə orqanlarına təhvil verilməməsinə cavab olaraq İrəvanın Moskvaya məntiqsiz cavabları da bu problemlər sırasındadır". Hambaryan bildirib ki, Paşinyanın cəhdləri, onun "rus qorxuları"nı Sefilyan və digər antirus xadimlərin dodaqları ilə səsləndirməsi təhlükəli oyunun başlanğıcıdır və bundan təkcə Paşinyan yox, eləcə də Ermənistan əziyyət çəkəcək.

Yuxarıda qeyd olunduğu kimi, "İşıqlı Ermənistan" Partiyası vasitəsilə də Paşinyan Rusiyaya qarşı mövqeyini ortaya qoyur. "İşıqlı Ermənistan" Partiyasının parlament fraksiyasının üzvü Arman Babacanyan belə bir vaxtda açıqlama verib ki, Ermənistanın başına gələn bütün bəlalarda günahkar Rusiya prezidenti Vladimir Putindir. Özü də bu açıqlama Putinin gələn ayın əvvəlində Ermənistana gözlənilən səfəri fonunda verilir. Babacanyan isə bildirir: "Moskvanın nəyə görə "1 mart" məsələsində bu qədər maraqlı olmasını anlamaq yaxşı olardı. Həqiqətən də bu, Vladimir Putinin Robert Köçəryanı dəstəklədiyini göstərir? Başqa sözlə desək, problem Putinlə bir çox məsələlərdə, o cümlədən ortaq cinayətlərdə bağlılığı olan ikinci prezidentin şəxsiyyətindədir, yoxsa Moskva məhz "1 mart" məsələsində maraqlıdır? Bu suala birmənalı cavab vermək çətindir. Digər tərəfdən, bir qədər əvvəl məlum oldu ki, 1 mart işində Rusiyanın iğtişaşların yatırılmasında müəyyən iştirakı olduğunu sübut edən sənədlər peyda olub". "Shame.am" portalı yazır ki, bu gedişlə Arman Babacanyan ABŞ-ın Ermənistandakı səfiri ilə məsləhətləşmələr aparacaq, səfir isə Nikol Paşinyana Baş Prokurorluğun Vladimir Putinə qarşı cinayət işi açması və onu məsuliyyətə cəlb etməsi üçün göstəriş verməsini tapşıracaq: "Bunları qətiyyən istisna etmək olmaz. Çünki Ermənistanda dəlilik epidemiyası təhlükəsi var. Bu gün artıq bütün simptomlar mövcuddur. Konstitusiya Məhkəməsinin qərarı necə gəldi şərh olunur: nazir Köçəryanın azad edilməsinə qərar vermədiyini bildirir, digərləri isə məhkəmənin legitim olmadığını iddia edir. Vladimir Putinə Ermənistanda müttəhim statusu verilməsi xoşagəlməz olardı. Yeni Ermənistan artıq hər şeyin baş verməsinin mümkün olduğu ABŞ-Soros koloniyasıdır".




Moskvada yaşayan erməni politoloq Andranik Miqranyan isə bu xüsusda bildirib ki, həqiqətən İrəvan Moskva ilə kəskin ziddiyyətlərə gedir və Kreml bunları cavabsız qoymayacaq. Ekspert xatırladır ki, sentyabrın 3-də Ermənistan Miqrasiya Xidməti tərəfindən rus müxalifətçi Vitali Şişkinin qaçqın kimi tanındığı və sığınacaq verildiyinin üzə çıxmasından sonra Kreml müəyyən cavab tədbirləri görəcək. Şişkinə sığınacaq verilməsinin Ermənistan Dövlət Aktlarının Məcburi İcrası Komitəsinin sabiq rəisi, korrupsiya ittihamı ilə axtarışa verilən Miqran Poqosyanın Ermənistana təhvil verilməməsi ilə bağlı Rusiya hakimiyyətinin addımına cavab olması barədə məsələni şərh edərkən Miqranyan qeyd edib ki, bu qədər siyasi maraq olmasına baxmayaraq, Rusiyada heç Poqosyanı tanımırlar: "Ancaq indi söhbət Poqosyandan deyil, daha çox tanınan nüfuzlu bir şəxsdən gedir və bunları bərabər tutmaq olmaz". Miqranyanın sözlərinə görə, Ermənistan Rusiyaya açıq formada etiraz bildirmək üçün qətiyyətli mövqeyə və resurslara sahib deyil: "Poqosyanın qaytarılıb-qaytarılmaması siyasi məsələ deyil. Bu məsələnin onun təhvil verilməsinə dair sənədlərin savadsız hazırlanmasından başlayaraq, Rusiya üçün siyasi əhəmiyyət daşımadığına qədər bərabər tutulması əsassızdır. Ancaq Şişkinin məsələsi Rusiya üçün tamamilə siyasi məsələdir və bu məsələ ilə bağlı Ermənistanda hansı səviyyədə qərar verildiyi sirr deyil. Paşinyan bununla Rusiyanın qəzəbini Ermənistanın üzərinə çəkir". O qeyd edib ki, Şişkinə siyasi sığınacaq verilməsi qərarı hər kimin səviyyəsində verilibsə, bu, Rusiya hakimiyyətinə və məhz prezident Putinə qarşı sərt reaksiyadır: " Ermənistan Şişkinə siyasi sığınacaq verirsə, demək açıq-aşkar ictimai şəkildə Rusiya hakimiyyətinin üzünə tüpürür. Belə bir addım atmaq üçün axmaq, yaxud Ermənistanın düşməni olmalısan". Onun sözlərinə görə, Şişkin Ermənistanın onunla bir çox sahələrdə, hərbi, iqtisadi, sosial-iqtisadi məsələlərlə bağlı olduğu Rusiya hakimiyyəti ilə qarşıdurmaya getməyə layiq şəxs deyil:"Ermənistanda bəzi insanlar ağlını itirib.

Onlar hesab edir ki, dünya onların addımları ilə razılaşmalı, onların arxasınca getməli və çevrələrində fırlanmalıdır. Çox təəssüf ki, erməni xalqı və erməni dövlətçiliyi bunlar kimilərin əlinə keçib. Ermənistan hakimiyyəti dərk etmir ki, bu cür şıltaqlıqları heç super güclər də özlərinə rəva bilməz. Bu insanlar bilmir ki, Yupiterin edə biləcəyini öküz edə bilməz. Bu, siyasət elminin və diplomatiyanın ən sadə əlifbasıdır. Mən Ermənistanda hakimiyyətə kəmsavadların gəldiyini bilirdim. İndi isə bunların heç bir şey öyrənməyə meylli olmadığına da əminəm".

Bütün bunlar qarşıdakı dövr ərzində Rusiya-Ermənistan münasibətlərində kifayət qədər gərginliklərin olacağını deməyə əsas verir.

***Tahir TAĞIYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# İrəvanın Qarabağ siyasətindən narazılıq Rusiyada külli-ümumi rəyə çevrilir...

**Ermənistan hakimiyyətinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı sərgilədiyi mövqe artıq dünya miqyasında da ciddi tənqidlə qarşılanır və İrəvanın bu məsələdə qeyri-konstruktiv mövqeyinə qarşı iradlar artır. Xüsusən də Ermənistanın baş naziri Nikol Paşinyanın bir-birinin ardınca verdiyi ziddiyyətli bəyanatlar qəbuledilməz hal kimi qiymətləndirilir.**

Bu xüsusda Atlantik Şuranın siyasi şərhçisi, ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Metyu Brayzanın məsələyə münasibəti xüsusi diqqət cəlb edir.

Sabiq səfir vurğulayır ki, Ermənistan hökumətinin indiki mövqeyi məzmunlu danışıqlar aparmağa imkan vermir. Bu mövqe Azərbaycan üçün tamamilə qəbuledilməzdir. Brayzanın sözlərinə görə, Dağlıq Qarabağın yekun hüquqi statusu danışıqlar yolu ilə razılaşdırılmalıdır: "Danışıqlar prosesində bir tərəf fayda əldə etmək üçün nəyisə güzəştə getməlidir. Hansısa tərəf istədiyi hər şeyi əldə etmək üçün güzəştə getməyəcəyini deyirsə, bu, sadəcə doğru deyil". Brayza bildirib ki, indilikdə Ermənistan baş nazirinin bəyanatları bir-birinə ziddir: "Onun bəyanatları bir-birinə ziddir. Gah deyir Dağlıq Qarabağ müstəqildir, gah da deyir Ermənistanın bir hissəsidir. Mən vasitəçi olsaydım buna açıq şəkildə etiraz edib istefa verərdim. Bu mövqe ilə irəliləyiş əldə etmək mümkün deyil. Bu, ədalətli deyil". Əslində vasitəçilərdən Rusiya məsələ ilə bağlı mövqeyini ortaya qoyub. Elə bu günlərdə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova qeyd olunan xüsusda mühüm açıqlamalar vermişdi. O bildirmişdi ki, bəyanatlar səsləndirilərkən çox diqqətli olmaq lazımdır:

"Azərbaycan və Ermənistan arasında münaqişə çox çətin bir prosesdir. Bu baxımdan bəyanatlara diqqət edilməlidir. Bu, başlanğıc nöqtəyə qayıtmamağımız və prosesin sıfıra düşməməsi üçün vacibdir. Əlbəttə ki, biz tərəflərin bəyanatlarının sülh yolu ilə münaqişənin həllinə yönəlmiş ümumi səylər kontekstində uyğun gəlməli olduğu qənaətindəyik. Çox istərdik ki, daxili siyasi proseslərə hörmətlə yanaşaq. Lakin bununla yanaşı, bütün tərəflərin eyni prinsipdən - sürətli sülh yolu ilə həll etmə prinsipindən çıxış etməsini də istərdik". O həmçinin bildirib ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesi çox mürəkkəb və uzunmüddətlidir, lakin tez bir zamanda irəliliyə addım atmaq üçün ortaq bir anlayış var.

Göründüyü kimi, Moskva Paşinyanın son fikirlərini çox ağrı ilə qəbul edib. Rusiya ikinci dəfədir ki, Zaxarova səviyyəsində bu çıxışa reaksiya verir. Təxminən iki həftə əvvəl Zaxarova həftəlik brifinqdə Dağlıq Qarabağ münaqişəsinin həlli və Dağlıq Qarabağın statusu məsələsinə toxunub: "Rusiyanın fikrincə, Dağlıq Qarabağın son statusu Ermənistan və Azərbaycan arasında danışıqlar yolu ilə həll edilməlidir". O, Rusiyanın ATƏT-in Minsk Qrupunun həmsədr ölkəsi olaraq, İrəvan və Bakı ilə yaxın münasibətləri nəzərə alıb sülh prosesinin hərtərəfli irəliləməsini dəstəkləməkdə davam edəcəyini qeyd edib: "Məmnuniyyətlə vurğulayırıq ki, Ermənistanla Azərbaycan arasındakı təmas xəttində nisbi sakitlik hökm sürür. Eyni zamanda, tərəflərin bir-birinə qarşı müxtəlif ittihamlar səsləndirməyə davam etdirməsindən narahatlıq keçiririk. Bu kimi ritorika danışıqlar prosesi üçün əlverişli şəraitin yaradılmasına və təbii olaraq, münaqişənin həlli üçün kompromis variantların tapılması prosesinə ziddir". Bununla Kreml əvvəlcə Paşinyana Qarabağın statusunun İrəvan və Bakı arasındakı danışıqlar yolu ilə müəyyən edilməli olduğunu bir daha xatırladıb. Rusiyalı siyasi analitik Fyodor Lukyanov da məsələyə eyni prizmadan yanaşır. O vurğulayır ki, Zaxarovanın açıqlamaları Moskvanın bu vəziyyətdə özünü əsl vasitəçi kimi göstərdiyinin təsdiqi və Ermənistana ünvanlanmış xəbərdarlıqdır. Lukyanovun sözlərinə görə, Zaxarovanın bu müşahidələri həmsədr ölkə nümayəndəsinin qiymətləndirməsi kimi qəbul edilməlidir: "Danışıqlar prosesinə mənfi təsir edə biləcək bəyanatları, inkişafları dayandırmaq və onlara reaksiya vermək bütün həmsədr ölkələrin funksiyasıdır. Başa düşmək lazımdır ki, Rusiya strateji müttəfiq olmaqla yanaşı, həm də həmsədr ölkədir və onun öz üzərinə götürdüyü öhdəliklər var. Ermənistan bundan nəticə çıxarmalıdır".

Məsələ ilə bağlı Rusiyanın "rosbalt.ru" portalı da qeyd edir ki, Rusiyanın yanaşmasından Ermənistan müvafiq nəticələr çıxarmalıdır: "Kreml Qarabağ münaqişəsinin aktiv fazaya keçməsini istəmir. Çünki Rusiyaya indiki şərtlər daxilində Qafqazda gərginlik sərfəli deyil. Bu hal Qərbin diqqətini daha çox regiona yönəldəcək və Gürcüstanla ABŞ arasında münasibətlər fonunda Kreml buna qarşıdır. Lakin o da faktdır ki, Ermənistanla Azərbaycan arasında Qarabağ danışıqları da istənilən nəticəni vermir. Bu səbəbdən Bakı hər an hərbi əməliyyatların yenilənə biləcəyini bəyan edir. Bu durumda Rusiya Ermənistanın Qarabağ danışıqlarında irəliyə doğru müəyyən addımlar atmasında maraqlıdır. Əslində, Ermənistanın Rusiyanın bu istəyinə əməl etməsindən başqa çıxış yolu da yoxdur. Məsələn, Ermənistana güzəştli kreditlə və daxili qiymətlərlə silah satan Rusiya ilə hərbi-texniki əməkdaşlığın inkişafı, xüsusən də İrəvan üçün həyat önəmlidir, çünki başqa tərəfdaşlar yoxdur. Bundan savayı, Rusiya və Ermənistan Cənubi Qafqazda təhlükəsizliyi təmin etmək üçün birləşmiş qruplaşma yaradıb. Buna əlavə edək ki, Ermənistan ərazisində - Gümrüdə Rusiyanın hərbi bazası mənzillənib - hesab edildiyi kimi, xarici təhlükələri dəf etmək üçün. Bütün bunlar Ermənistan üçün həyati əhəmiyyətlidir. Lakin görünən həm də budur ki, Nikol Paşinyan iqtidarı bu məqamları diqqətdən qaçırır, Rusiyaya qarşı müəyyən gedişlər edir. Ermənistan Rusiyadan ala biləcəyi hər şeyi almaq və əvəzində heç nə verməmək istəyir. Bəs burada müttəfiqlik münasibətləri haradadır? Doğrusu, Moskva üçün bu, daha çox Bakı ilə formalaşır. O halda demək olar ki, Paşinyan hakimiyyətdə qalarsa, istisna deyil ki, Rusiya elə həmin Qarabağ və silah tədarükü məsələsində Ermənistandan aralanacaq ki, bu da Azərbaycanın işinə yarayır.

Bir də Köçəryanın həbsi də İrəvanla münasibətləri möhkəm korlayır. Hər halda, Ermənistanın qəzəbə gəlmiş keçmiş prezidentini doğum günü münasibətilə iki dəfə Putinin özü təbrik edib ki, bu da Ermənistan hökuməti üçün müəyyən "siqnal" rolunu oynamalıdır. Amma oynamayıb. Onda Rusiyanın istədiyi addımlar atlımasa, İrəvan bunun nəticələrinə də qatlaşmağa hazır olmalıdır. Düzdür, danışıqlar prosesinin irəliləməyini ləngidən daha bir məqam var - "DQR" və Ermənistan arasında münasibətlərin korlanması davam edir. Hesab olunur ki, Ermənistanın qabaqkı rejiminin - respublikanın iki keçmiş prezidenti Robert Köçəryan və Serj Sarksyanın tərəfdarları Xankəndidə artıq daha möhkəm "səngər tutublar". Onlar "Qarabağ klanı" deyilən qrupun təmsilçiləri sayılırlar. İrəvanda praktik olaraq açıq danışırlar ki, "əksinqilabçıların bu yuvasını" aradan qaldırmaq gərəkdir. Belə ki, Dağlıq Qarabağ, demək olar, inqilabi gözləntilər rejimində yaşayır. Bu vəziyyətdə Qarabağdakı rejim Paşinyana etibar etmir və bu da məsələnin dinc həllini tormozlayan daha bir faktordur. Belə vəziyyətdə Rusiyanın "Qarabağ klanı"na münasibətini İrəvan nəzərə almalıdır. Əks mövqe, qeyd edildiyi kimi, Paşinyana yaxşı heç nə vəd etmir".

Erməni politoloq Robert Gevondyan da məsələyə eyni prizmadan yanaşır. Onun fikrincə, Ermənistan hakimiyyətinin son addımları Rusiyanı getdikcə daha çox qəzəbləndirir: "Aydındır ki, Moskvanın müəyyən cavab tədbirləri olacaq. Bu hal Ermənistanın daxili və xarici durumuna təsir edəcək. Təkrar etməkdən yorulmuram ki, inqilabi hökumətin ən böyük səhvi bu idi ki, keçmiş rejimə siyasi qiymət verilmədi. Bu qiymət verilməyincə, qalan hər şey mənasız və məntiqsiz olur. Bax bu vəziyyətdə Rusiyanın Köçəryanı açıq müdafiə etməsi artıq yaxşı heç nə vəd etmir. Xarici siyasətdə təsir daha çox Qarabağ məsələsi üzərindən olacaq. Məsələn, mümkün yeni Qarabağ savaşı indiki şərtlər daxilində Ermənistana böyük zərbə olardı. Yaddan çıxarmayaq ki, düşmənlərimiz var - Türkiyə və Azərbaycan. Onların təzyiqi getdikcə daha sərt olur. Bizim öz maraqları olan müttəfiq dostlarımız da var və onlar öz maraqlarına uyğun hərəkət edirlər. Məsələn, Rusiya artıq buna real nümunədir. Moskva Qarabağ məsələsində daha çox qarşı tərəfi dəstəkləməyə başlayır. Bu vəziyyətdə Azərbaycan istəyinə daha tez çata bilər. Rusiya ilə korlanan münasibətlərimiz də buna münbit şərait yaradır. Zaman keçdikcə təhlükə güclənir".

Rus hərbi analitik Aleksandr Xramçixin isə bildirir ki, Rusiya Azərbaycan və Ermənistanla münasibətdə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı baxımından da müəyyən sərt addımlar ata bilər. O qeyd edir ki, Kreml İrəvanı cəzalandırmaq üçün Azərbaycanın KTMT-yə müşahidəçi kimi qəbul edilməsini reallaşdıra bilər. Təbii ki, Bakı özü də buna razılıq versə: "Azərbaycanın KTMT-yə müşahidəçi kimi qəbul edilməsi səs çoxluğu ilə olsa, o zaman bu mümkündür".

Onun sözlərinə görə, bu kimi dəyişikliklər təşkilata mümkün qədər çox ölkənin cəlb edilməsi üçün edilir. Ekspert bildirir ki, bu durumda KTMT amili və silah alınması məsələsi Ermənistan üçün hansısa əhəmiyyət kəsb etməyəcək. Bütün bunların qarşısı isə Ermənistanın Rusiya ilə münasibətlərini normallaşdırması və Moskvanın istəyilə Qarabağ məsələsində də müəyyən güzəştli addımlar atması ilə alına bilər. Hər halda, proseslərin inkişaf axarı Moskva-İrəvan münasibətlərinin Qarabağ məsələsində də öz əksini göstərəcəyini deməyə əsas verir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Separatçı "DQR" rejiminin Azərbaycanın işğal olunmuş ərazilərində keçirdiyi saxta seçkilər heç vaxt beynəlxalq ictimaiyyət tərəfindən tanınmayıb. Ancaq məsələnin başqa maraqlı tərəfi var. Həmin "seçkiləri" tanımamaqla bağlı ilk reaksiyanın hansı ölkələr tərəfindən verilməsi vacib məqamdır. Hər halda, "uman yerdən küsərlər " deyiblər.**

# Gürcüstanın qondarma "DQR"dəki saxta seçkiyə reaksiyası çevik oldu...



## *Nəzakət Məmmədova: "Gürcüstan tərəfi yaxşı başa düşür ki, separatizmə qarşı mövqe ortaya qoymaq, ilk növbədə, onun özünə lazımdır"*

Biz belə ilk reaksiyanı separatçılıqdan əziyyət çəkən ölkələrdən gözləyirik. Belə ölkələrdən biri də qonşuluğumuzda olan Gürcüstandır. Həmin ölkə həm separatizmdən əziyyət çəkir, həm də bizimlə yaxın qonşudur. Yəni üzərinə ikiqat məsuliyyət düşür. Ancaq təəssüf ki, biz Gürcüstandan indiyə qədər bu məsələ ilə bağlı operativlik görmürdük. Bu yaxınlarda Gürcüstan ərazisində separatçı kimi tanınan Abxaziyada qondarma seçkilər keçirildi. Onun nəticələrini tanımamaqla bağlı ilk bəyanatı Azərbaycan verdi. Qəzetimizdə məxsusi olaraq bu mövzuya toxunduq ki, analoji operativliyi Gürcüstandan da görmək istəyirik. Hər halda, Gürcüstanın son reaksiyasından məmnun qalmaq olar.

Gürcüstan Dağlıq Qarabağda qondarma "yerli özünüidarəetmə orqanlarına seçkiləri" tanımadığını hamıdan əvvəl bəyan edib. Bu barədə Gürcüstan Xarici İşlər Nazirliyinin bəyanatında deyilir. Sənəddə qeyd olunur ki, Azərbaycanın suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində ərazi bütövlüyünə dəstəyini bir daha ifadə etməklə, Gürcüstan Xarici İşlər Nazirliyi 2019-cu il sentyabrın 8-də Dağlıq Qarabağda keçirilmiş qondarma "yerli özünüidarəetmə orqanlarına seçkiləri" və onun nəticələrini tanımır.

Bəyanata əsasən, Gürcüstan Xarici İşlər Nazirliyi münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, sülh yolu nizamlanmasını dəstəkləyir.

Gürcüstanın separatçıların keçirdiyi qondarma seçki ilə bağlı mövqeyini necə dəyərləndirmək olar?

Politoloq Nəzakət Məmmədova "Bakı-Xəbər"ə bildirdi ki, bir müddət əvvəl bizimlə söhbətində bu məsələyə toxunub: "Gürcüstanın belə reaksiyası normaldır və əslində, belə də olmalıdır. Hər bir dövlət beynəlxalq hüquqa, başqa dövlətlərin ərazi bütövlüyünə hörmət etməlidir, ələlxüsus, onun öz ərazisində separatizm ocaqları varsa. Gürcüstan XİN-in bu addımı təqdirəlayiqdir. Gürcüstan Prezidenti xanım Zurabişvili də Ermənistanda olarkən Qarabağ separatçılarının Abxaziya və Cənubi Osetiyaya səfərlərindən narazılığını bildirmişdi.

Gürcüstan tərəfi yaxşı başa düşür ki, separatizmə qarşı mövqe ortaya qoymaq, ilk növbədə, onun özünə lazımdır. Gürcüstan Prezidenti Azərbaycana səfəri zamanı hər iki ölkənin torpaqlarının işğal olunduğunu vurğuladı və İrəvanda olarkən də erməni jurnalistlərinin ciddi-cəhdinə baxmayaraq, bu mövqeyindən geri çəkilmədi.

Xanım Prezidentin bu mövqeyi Cənubi Qafqazdakı münaqişələrə obyektiv yanaşma hesab oluna bilərdi. O bildirmişdi ki, Dağlıq Qarabağdan separatçılar Abxaziyaya və Cənubi Osetiyaya gələrək buradakı separatçılarla yaxın əlaqələr qururlar. Doğrudur, Zurabişvilinin bu mövqeyi ədalətli olsa da, lakin Gücüstanla sərhəddə insident, erməni terrorçuya abidə qoyulması iki ölkə arasında münasibətləri gərginləşdirmişdi. Görünür, Gürcüstan Azərbaycanla münasibətləri tam qaydasına salmaq, beynəlxalq hüquqa riayət etdiyini göstərmək, habelə öz ərazi bütövlüyü məsələsinin ədalətli həllinə presedent yaratmaq naminə bu bəyanatı verib. İstənilən halda, belə operativ reaksiyanı biz təqdir edirik. Ümidvar olmaq istəyirik ki, bu mövqe daim qorunub saxlanacaq".

***Məhəmmədəli QƏRİBLİ***

**Ermənistan Parlamentinin xarici əlaqələr üzrə komitəsində Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) nizamnaməsinə dəyişikliklərin edilməsi barədə müzakirələr keçirilib.**

# Azərbaycan hələ KTMT-yə üzvlüklə bağlı bir şey deməyib, İrəvanda vay-şivəndir...



## *Fikrət Sadıqov: "Ermənistan hakimiyyəti, sadəcə, KTMT-nin nizamnaməsinə dəyişikliklərin edilməsindən xoflanır"*

Dəyişikliklərə əsasən KTMT-da müşahidəçi və tərəfdaş statusları olacaq. Parlamentdə çıxışı zamanı Xarici işlər nazirinin müavini Şavarş Koçaryan bildirib ki, Ermənistan ona dost olmayan istənilən ölkənin KTMT-də müşahidəçi və ya tərəfdaş statusunu almasını blok edə bilər: "Buna qədər KTMT-də müşahidəçinin ola biləcəyinə dair bənd var idi. Lakin o açıqlanmamışdı. İndi isə təklif var ki, daha yüksək status - tərəfdaş statusu olsun. Onlar arasında fərq var". Koçaryan vurğulayıb ki, nizamnamədə Ermənistan üçün belə bir statusa malik ölkənin KTMT-ya üzv ölkəyə qarşı hər hansı bir addım atmaması barədə bəndin olması olduqca əhəmiyyətlidir: "Heç bir ölkə KTMT-nın bütün üzvlərinin razılığı olmadan müşahidəçi və ya tərəfdaş statusu ala bilməz". Deputatlar nazirdən Azərbaycanın bu statuslardan hər hansı birini almaq istəyib-istəmədiyi ilə maraqlanıblar. Koçaryan vurğulayıb ki, KTMT-nın məqsədi onun üzvlərinin təhlükəsizliyidir: "Ermənistanın ərazi bütövlüyünü və təhlükəsizliyini birbaşa təhdid edən dövlət varsa, bu statuslardan hər hansı birini almağı bloklamaq üçün daha heç bir əlavə fakt lazım deyil. Təsəvvür edin, Azərbaycan quruma üzv olub. Bu bizim üçün daha qəbuledilməz olardı". Parlamentinin xarici əlaqələr üzrə daimi komitəsinin sədri Ruben Rubinyan isə qeyd edib ki, Ermənistan heç vaxt Azərbaycanın KTMT-də müşahidəçi və ya tərəfdaş ölkə olmasına razı olmayacaq: "Azərbaycan KTMT-də müşahidəçi olmayacaq, Azərbaycan KTMT-də tərəfdaş ölkə olmayacaq. Nə üçün bu qədər əminəm, çünki Ermənistan heç vaxt tərəfdaş ölkəyə razılıq verməyəcək". O da məlumdur ki, Azərbaycanın heç vaxt KTMT-yə üzv olmaq istəyi olmayıb. Eyni zamanda, qurumda müşahidəçi və ya tərəfdaş statusu ilə təmsil olunmaq niyyətini bəyan etməyib. Belə olan halda, maraqlıdır, Ermənistan niyə bu qədər narahatdır? Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, Ermənistan hakimiyyəti sadəcə KTMT-nin nizamnaməsinə dəyişikliklərin edilməsindən xoflanır: "Narahatdılar ki, bu dəyişikliklər guya Azərbaycanın qurumda müşahidəçi statusi ilə təmsil olunmasına hesablanıb. Ancaq bu belə deyil. Azərbaycan heç vaxt KTMT-də hansısa statusla təmsil olunmaq təşəbbüsü ilə çıxış etməyib. Bununla bağlı səslənən fikirlər şaiyə xarakterli olub və reallığa uyğun deyil. Digər tərəfdən Ermənistan rəhbərliyi anlamalıdır ki, KTMT-də əsas koordinator dövlət Rusiyadır.

*"Azərbaycan heç vaxt təşkilatda hansısa statusla təmsil olunmaq təşəbbüsü ilə çıxış etməyib"*

Təşkilatda əsas söz sahibi Kreml hakimiyyətidir. Moskvanın razılığı olandan sonra Ermənistan buna qarşı çıxa bilməz. Sadəcə olaraq, Ermənistan hakimiyyəti görüntü yaratmaq istəyir ki, guya onlar müstəqildir və belə bir təşəbbüs olsa veto qoyacaqlar. Əslində isə Azərbaycanı bu məsələlər narahat etmir. Ona görə ki, qeyd olunduğu kimi, Azərbaycanın belə bir istəyi yoxdur. Eyni zamanda, heç buna ehtiyacı da yoxdur".

***Vidadi ORDAHALLI***

**Avropanın enerji bazarında Azərbaycan mövqelərini daha güclü hala gətirərək, bu qitədə yerləşən bir sıra ölkələrin energetika üzrə təhlükəsizliyinin daha yüksək səviyyədə təmin edilməsinə növbəti ciddi töhfələrini verməyə hazırlaşır. Söhbət konkret olaraq "Cənub Qaz Dəhlizi"ndən gedir. Belə ki, Azərbaycanın "Cənub Qaz Dəhlizi" meqalayihəsi başa çatmaq üzrədir.**

# Avropanın enerji bazarında Azərbaycanın mövqeləri yeni güclənmə imkanları tapır...




Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) İctimaiyyətlə əlaqələr və tədbirlərin təşkili idarəsinin rəis müavini İbrahim Əhmədovun sözlərinə görə, bu layihənin seqmentləri olan Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi və "Trans-anadolu" Qaz Boru Kəmərinin (TANAP) tikintisi kimi layihələrdə irəliləyiş 100 faizə yaxındır.

O bildirib ki, dünyanın ən iri qaz-kondensat yataqlarından biri olan "Şahdəniz"lə bağlı 93%, "Transadriatik" Qaz Boru Kəmərinin (TAP) tikintisilə bağlı 88,8% irəliləyiş əldə edilib: "Cənub Qaz Dəhlizi"nin bütün seqmentlərinin maliyyələşdirilməsində Azərbaycanın payı dörddə birə qədər, yəni 10,1milyard ABŞ dollarına yaxındır. Bu vəsaitin 97%-i həm yerli ehtiyatlar, həm də kənardan cəlb edilmiş vəsaitlər hesabına artıq yatırılıb". Xatırladaq ki, dörd seqmenti özündə birləşdirən və 40 milyard dollar investisiya qoyuluşu hesabına başa gələn "Cənub Qaz Dəhlizi" "Şahdəniz-2", Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi, TANAP və TAP layihələrindən ibarətdir. Bu layihənin icrasında Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliya iştirak edir. Növbəti mərhələdə "Cənub Qaz Dəhlizi"nə daha 3 Balkan ölkəsi, yəni Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro qoşulacaq. Buna görə də "Cənub Qaz Dəhlizi" enerji resurslarının şaxələndirilməsi işində mühüm əhəmiyyətə malikdir. Layihə həm mənbələrin, həm də marşrutların şaxələndirilməsinə hədəflənib. Məhz enerji resurslarının şaxələndirilməsi, yeni marşrutların açılması sayəsində Avropa yeni mənbədən - təsdiq edilmiş ehtiyatları 2,6 trilyon kubmetr olan Azərbaycandan təbii qaz alacaq.

Onu da bildirək ki, Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" qaz-kondensat yatağından hasil olunacaq qazı Türkiyəyə nəql edən və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı "Cənub Qaz Dəhlizi"dünyada inkişaf etdirilən ən kompleks təbii qaz boru kəmərləri zənciri kimi qiymətləndirilir. Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan "Cənub Qaz Dəhlizi" ilə ilkin mərhələdə Türkiyəyə ildə 6 milyard kubmetr qaz göndəriləcək. Avropaya isə 10 milyard kubmetr Azərbaycan qazının nəqli nəzərdə tutulur. TAP-ın hazır olması ilə "Cənub Qaz Dəhlizi" tam şəkildə fəaliyyətə başlayacaq. Bu boru kəməri Türkiyə-Yunanıstan sərhədində TANAP boru kəmərinə qoşularaq Yunanıstan, Albaniya və Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna qədər uzanır. Artıq gələn ildən Azərbaycan qazının Avropaya çatdırılması proqnozlaşdırılır. TAP Bolqarıstanın qaz ehtiyacının 33%-ni, Yunanıstanın 20%-ni, İtaliyanın isə, təxminən, 10,5%-ni qarşılayacaq. Yuxarıda qeyd olunduğu kimi, onun ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulur. Perspektivdə TAP Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır. Bütün bunların isə Azərbaycan üçün əhəmiyyəti olduqca mühümdür. İlk növbədə o baxımdan ki, Azərbaycan həyata keçirdiyi böyük enerji layihələri ilə beynəlxalq aləmdə özünü tanıda bilib. Dünya da onu qəbul edir ki, belə layihələri həyata keçirən Azərbaycan Cənubi Qafqaz regionunun geosiyasi və iqtisadi konturlarının müəyyən edilməsinə birbaşa təsir edə bilir. Eləcə də bu layihələr Azərbaycanın böyük dövlətlərlə sıx əməkdaşlıqlarının qurulmasına şərait yaradıb. Başqa bir mühüm cəhət budur ki, belə layihələr ölkəmizin dünya iqtisadiyyatına sürətli inteqrasiyasını təmin edib. Bütün bunlar həm də onun təsdiqidir ki, "Cənub Qaz Dəhlizi" layihəsi Azərbaycanın mövqeyini beynəlxalq miqyasda gücləndirir. Azərbaycan belə layihələrdə iştirak etməklə beynəlxalq arenada həm siyasi, həm də iqtisadi nüfuzunu yüksəldir. Başqa bir önəmli məqam budur ki, "Cənub Qaz Dəhlizi" qarşıdakı dövr ərzində daha böyük əməkdaşlıq üçün münbit zəmin yaradır.

Belə ki, layihəyə əlavə iştirakçıların qoşulması üçün də müvafiq addımlar atılır. Ekspertlərə görə, ilk növbədə bu layihəyə Türkmənistan qoşula bilər. Avropa İttifaqı artıq bu məqsədlə "Transxəzər" qaz kəmərinin çəkilişinə xüsusi maraq göstərir və müvafiq danışıqlar aparır. Xatırladaq ki, planlaşdırılan sualtı qaz kəməri Türkmənistanın Türkmənbaşı şəhərini Azərbaycanın paytaxtı Bakı ilə birləşdirməlidir. Bəzi mənbələrə görə, Qazaxıstandakı "Tengiz" yatağından da bir qaz kəmərini şəbəkəyə bağlamaq və onu Türkmənbaşı ilə birləşdirmək planlaşdırılır. Bu sualtı qaz kəməri təbii qazın Türkmənistan və Qazaxıstandan Azərbaycan vasitəsilə Türkiyə və Gürcüstana, daha sonra isə Avropa İttifaqına üzv ölkələrə nəqlini nəzərdə tutur. Bu boru kəməri həm də "Cənub Qaz Dəhlizi"nin genişləndirilməsinin bir hissəsi hesab olunur. Rusiya və İran hökumətləri ətraf mühitin qorunması motivləri əsasında "Transxəzər" qaz kəmərinin inşasına qarşı çıxıb. Amma Avropa İttifaqı və digər xəzəyanı ölkələr bu iddiaları əsassız sayır. O da maraqlıdır ki, məhz belə bir vaxtda Çin "Transxəzər" in inşasında Avropa İttifaqını dəstəkləmək qərarına gəlib. Avropa və Çin şirkətlərindən ibarət konsorsium, eləcə də Çinin SINOPEC Mühəndislik Qrupu "Transxəzər"in çəkilişi üçün müvafiq işləri görməyə hazır olduqlarını bəyan edib. Konsorsium bəyan edib ki, "Transxəzər" layihəsi çərçivəsində boru kəmərinin çəkilməsi ilə yanaşı zəruri infrastruktur, o cümlədən qaz təmizləyici qurğu və kompressor stansiyaları layihələri hazırlamağa və qurmağa da hazırdır. Bütün bunlar "Transxəzər"in inşasının yaxın perspektivdə baş tutmasının istisna etmir.

***Nahid SALAYEV***

# Azərbaycanda unun tərkibi indiyədək dəmirlə niyə zənginləşdirilməyib...

**Ölkəmizdə gündəlik istifadə etdiyimiz buğda ununun tərkibində dəmirin olmaması insanlarda müxtəlif xəstəliklərin yaranmasına səbəb olur. Bildiyimiz kimi, indiyə qədər bir sıra mütəxəssislər unun tərkibinin zənginləşdirilməsinin vacib olduğunu vurğulayıblar.**



***Eyyub Hüseynov:*** *"Un ağardıqca və daha yüksək sorta keçdikcə, onun tərkibindəki dəmir elementi..."*

***Qadir Bayramlı:*** *"20-30 il əvvəl Azərbaycanda unun tərkibi kifayət qədər zəngin idi və bizdə bu barədə problem olmayıb"*

Artıq dövlət səviyyəsində unun tərkibinin zənginləşdirilməsi qərara alınıb. Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Musa Quliyev Avropa və Mərkəzi Asiyada miktonutriyentlərin çatışmazlığının qarşısını almaq üçün unun zənginləşdirilməsi işinin planlaşdırılması, icrası və monitorinqi üzrə regional seminarda çıxışı zamanı bildirib ki, Azərbaycanda da unun zənginləşdirilməsi ilə bağlı qanun qəbul ediləcək.

M.Quliyevin sözlərinə görə, anemiya və mikroelementlərin çatışmazlığı artıq dünyanın bir çox ölkəsinin probleminə çevrilib. Millət vəkili qeyd edib ki, bu məsələnin həllini qarşılarına məqsəd qoyan ölkələr artıq müəyyən uğurlar əldə ediblər: "Azərbaycanda da bu sahədə lazımi işlər görülür. Anemiya və buna bənzər xəstəliklərin aradan qaldırılması üçün əhaliyə təsir edə biləcək qanunvericiliyin qəbul edilməsi zəruridir. Azərbaycanda da unun zənginləşdirilməsi ilə bağlı qanun qəbul ediləcək. Payız sessiyasında Milli Məclisin Səhiyyə komitəsində bu məsələ ilə bağlı dinləmə edəcəyik. Yaxın bir il ərzində Azərbaycanda belə bir qanun qəbul ediləcək".

Bəs 20-30 il əvvəl unun tərkibi necə idi? O zaman unun tərkibində yetərincə dəmir var idimi? İndi unda niyə dəmir çatışmazlığı yaranıb?

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bizimlə söhbətində bildirdi ki, Azərbaycan əhalisi ən çox çörək istehlak edən xalqdır. O qeyd etdi ki, təbii şəraitlə və digər məsələlərlə əlaqədar olaraq əvvəlki 20-30 illə müqayisədə, ümumiyyətlə, dünyada unun tərkibində müəyyən dəyişikliklər baş verib. "Əlbəttə, qida rasionu sabit qalmır, həmişə dəyişir. Əvvəlki illərdə un bu qədər kəpəkdən ayrılmırdı. Hətta bəzən çörəyi kəpək qarışıq undan bişirirdilər. Un ağardıqca və daha yüksək sorta keçdikcə, onun tərkibindəki dəmir elementi və digər elementlər də kəpəklə və s. getməyə başladı. Bunu da qeyd etməliyik ki, dünyada ən çox çörək yeyən əhali Azərbaycan əhalisidir. Üstəlik, Azərbaycanda bu kimi dəmir və mikroelementlərin çatışmazlığı bir sıra xəstəliklərin yaranmasına səbəb olub. Bugünkü gündə də Azərbaycanda çörək əhəmiyyətli məsələdir. Dəyirmanlar daha yüksək sortda dəmirsiz, mikroelementsiz un istehsal edirlər. Çünki buna bizim cəmiyyətdə tələbat var. Azərbaycanda ağ çörək yeyən insanların varlı insan hesab edirlər. Belə bir şəraitdə unun tərkibinin zənginləşdirilməsi əhəmiyyətli məsələdir. Hesab edirəm ki, bununla bağlı ayrıca qanunun hazırlanması da düzgün təşəbbüsdür" - deyə E.Hüseynov bildirdi.

Tanınmış kənd təsərrüfatı mütəxəssisi Qadir Bayramlı isə "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycanda yalnız unun deyil, digər məhsulların da tərkibinin zənginləşdirilməsinə ehtiyac var. "Unla bərabər bir sıra məhsulların da tərkibi analiz edilərək onlar gerçək duruma gətirilməlidir. 20-30 il bundan əvvəl un Azərbaycanda ən keyfiyyətli məhsullardan biri sayılırdı. İndi isə vəziyyət başqadır. Bizim istehsalçılar istehsal etdikləri məhsulların insan sağlamlığı üçün nə qədər əhəmiyyətli olmasına fikir vermirlər. Onu da deyim ki, Azərbaycanda istehsal edilən unun xeyli hissəsi xaricdən idxal edilən buğdadan hazırlanır. Bu problemdən uzaqlaşmaq üçün mümkün qədər Azərbaycanda əkilib becərilən buğdanı un istehsalına cəlb etmək lazımdır. Ölkəmizdə təxminən üç milyon ton taxıl istehsal olunur, bunun 1.8 milyon tonu buğdadır. Təəssüf ki, biz yerli buğdanın böyük hissəsini heyvan yemi kimi istifadə edirik. Digər tərəfdən də Azərbaycana unu idxal etməmişdən əvvəl həmin unun tərkibi analiz edilməlidir. Yəni ölkəyə un, buğda gətirən şirkətlər bilməlidirlər ki, ölkəyə gətirdikləri un, buğda nə qədər yararlıdır, insan sağlamlığı üçün zərərsizdir, onun tərkibində dəmir və digər mikroelementlər varmı? Buna diqqət yetirilməlidir. Sovet dövründə buna ehtiyac yox idi. Azərbaycan keçən əsrin 60-70-ci illərində özünü taxılla təmin edirdi, həmin dövrdə bu istiqamətdə problem yaşamamışıq. Problemlər son dövlər meydana çıxıb. 20-30 il əvvəl Azərbaycanda unun tərkibi kifayət qədər zəngin idi və bizdə bu barədə problem olmayıb. Çünki Azərbaycanın yerli buğdası, o buğdadan üyüdülən un hər zaman keyfiyyətli olub. Düzdür, o dövrdə indiki kimi laboratoriyalar yox idi, amma o unun da fəsadları görünmürdü. Azərbaycanın yerli buğdası keyfiyyətli un istehsalında istifadə edilib. Son 15-20 ildir buğda, un və digər qida məhsullarını alırıq, çox zaman da bunların tərkibi yoxlanılmır".

Q.Bayramlı hesab edir ki, Qida Təhlükəsizliyi Agentliyi və digər əlaqədar qurumlar tərəfindən un və buğda məhsulları satışa buraxılmamışdan əvvəl onların tərkibi analiz edilsin. "Hesab edirəm ki, ölkəyə gətirilən un və digər qida məhsullarına nəzarət gücləndirilməlidir. Unun tərkibinin zənginləşdirilməsi ilə bağlı qanun qəbul edildikdən sonra bu məsələ də öz həllini tapacaq" - deyə o qeyd etdi.

***İradə SARIYEVA***



## Eldar Əzizov Bakıda bağçaların qışa hazırlıq vəziyyəti ilə bağlı komissiya yaratdı

**Paytaxtda qışa hazırlıq tədbirləri çərçivəsində Bakı Şəhər İcra Hakimiyyətinin qurumlarında, o cümlədən Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinin tabeliyində olan uşaq bağçaları və uşaq evlərində də qışa hazırlığın, burada mövcud sanitar-gigiyenik və epidemoloji vəziyyətinin öyrənilməsi məqsədilə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı tərəfindən sərəncam imzalanıb, müvafiq komissiya yaradılıb.**

Sərancama uyğun olaraq Komissiya tərəfindən uşaq bağçalarına baxışlar keçiriləcək, bağçaların binaları, dam örtüyünün, istilik sistemlərinin vəziyyəti yoxlanacaq. Ərzaq təchizatı, saxlanma şəraiti, qidalanma məsələləri, uşaqların sağlamlıq səviyyəsi, infeksion xəstəliklərdən qorunma, profilaktika tədbirləri və digər məsələlərə xüsusi fikir veriləcək. Komissiyanın rəyi araşdırılacaq və müvafiq tədbirlər görüləcək.

# Uşaqları məscidə aparmaq olar?

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı uşaqların məscidlərə gətirilməsi məsələsinə münasibət bildirib. "Trend"in məlumatına görə, M.Qurbanlı bildirib ki, vətəndaş məscidə uşaqlarla gəlirsə, bu onun öz seçimidir.**

Komitə sədrinin sözlərinə görə, Azərbaycanda keçirilən dini mərasimlərə insanların gəlişi özlərinin istəyindən asılıdır: "İslama görə məscidlərə gəliş sərbəstdir, İslam dininin qadağa qoymadığı məsələ yoxdursa, dövlət buna qarışmır. Ona görə də vətəndaşlar məscidə uşaqlarla gəlirsə, bu da onların öz seçimləridir. Sadəcə olaraq, tövsiyə edirik ki, vətəndaşlar məscidlərdəki gecə mərasimlərinə körpələri gətirərkən diqqətli olsunlar, yəni böyük uşaqları gətirə bilərlər, ancaq körpələrdə diqqətli olmalıdırlar".



M.Qurbanlı vurğulayıb ki, "Dini etiqad azadlığı" haqqında qanun Azərbaycandakı bütün dini mərasimləri tənzimləyir: "Dini mərasimləri tənzimləyən qanunlarda vətəndaşların hər hansı bir dini ibadət yerinə - məscidə, kilsəyə, o cümlədən sinaqoq və ya digər ibadət yerlərə getməsi onun azad seçiminə bağlıdır. Vətəndaş özü müəyyən edir, istəyər gedər, istəyər yox. Azərbaycanda "Dini etiqad azadlığı" haqqında qanun vətəndaşa vicdan azadlığından irəli gələn prinsiplərə uyğun olaraq tam sərbəstlik verir".

# Aşura mərasimində daha bir xoşagəlməzlik - kiçik uşaqları da valideynlər mərasimə "dartır"

**Valideynlər bəzən uşaqlarla barədə qərar verdikdə bununla bağlı onların fikirlərini öyrənmək istəmirlər. Uşağın könlü oldu-olmadı, onlarla istədikləri kimi davranırlar. Uzağa getməyək, elə götürək uşaqların məcburi şəkildə Aşura mərasimlərinə aparan valideynləri. Çoxlarımız Aşura günü metroda, avtobusda başı hicablı 6-10 yaşlı qızlara, qoluna qara bağlamış oğlan uşaqlarına rast gəldik.**



## *Fatimə Hacıbəyli: ”Uşaqların, körpələrin dindar valideynləri tərəfindən Aşura mərasimlərinə aparılması yaxşı hal deyil”*

Onları ata və anaları özləri ilə Aşura mərasimləri keçirilən məscidlərə çəkib aparırlar.

Soruşa bilərsiniz ki, burada pis nə var, uşaqlar indidən dini dəyərlərimizə sahib çıxmağı öyrənirlər. Burada pis heç nə olmasa da, uşaqların məcburi qaydada bu şəkildə məscidlərə aparılması narahatlıq doğurur. Uşaqlar, ümumiyyətlə, Aşuranın nə olduğunu anlamaq dərəcədə yetkin deyillər. Bu mənada belə günlərdə onların məscidlərə aparılması, burada mərsiyələrə qulaq asdırılması uşaqların özlərinə də mənfi təsir göstərməyə bilmir. Əlbəttə, hər bir müsəlman mömin olmalıdır və Allahın kitabında buyurulanları icra etməlidir. Ancaq bu kimi halları dərk etdikdən sonra.

Onu da qeyd edək ki, bəzən valideynlər uşaqlarını, hətta körpələrini belə gecə saatlarında da məscidlərə aparır və onlar burada mərsiyələrə, nöhələrə qulaq asırlar. Başdan-başa hüznlə müşayiət edilən bu mərasimlərdə uşaqlar gizlin də olsa vahimə və qorxu yaşayırlar.

Onu da bildirək ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı da gecə vaxtı uşaqlarını məscidlərə gətirən valideynlərlə bağlı fikir bildirib. O qeyd edib ki, körpələri məscidlərdəki gecə mərasimlərinə apararkən diqqətli olsunlar. Komitə sədrinin sözlərinə görə, Azərbaycanda "Dini etiqad azadlığı haqqında" Qanun birbaşa vətəndaşa vicdan azadlığından irəli gələn prinsiplərə uyğun olaraq tam sərbəstlik verir. Onun sözlərinə görə, "Dini etiqad azadlığı haqqında" Qanun Azərbaycandakı bütün dini mərasimləri tənzimləyir: "İslama görə, məscidlərə gəliş sərbəstdir. İslam dininin qadağa qoymadığı məsələ yoxdursa, dövlət buna qarışmır. Ona görə də vətəndaşlar məscidə uşaqlarla gəlirsə, bu da onun öz seçimidir.

Sadəcə olaraq, biz tövsiyə edirik ki, vətəndaşlar məscidlərdəki gecə mərasimlərinə körpələri gətirərkən diqqətli olsunlar, yəni böyük uşaqları gətirə bilərlər, ancaq körpələrdə diqqətli olmalıdırlar" - deyə komitə sədri qeyd edib.

"Vəfa" Sosial İctimai Birliyinin sədri Fatimə Hacıbəyli bizimlə söhbətində qeyd etdi ki, bəzi valideynlərin uşaqlarını Aşura və digər kütləvi mərasimlərdə gecə saatlarında məscidlərə aparması doğru deyil. O hesab edir ki, uşaqlarımız dinimizi öyrənməlidirlər, amma zamanı çatdıqda. "Bilirsiniz ki, Azərbaycanda dini etiqad azadlığı var və bu gün istənilən dinin təmsilçisi özlərinə aid olan dini ocaqlarda ibadətlə məşğul olurlar. Azərbaycanda sağlam dini mühit mövcuddur. Bu gün Azərbaycan ailələrində dinə meyl yüksələn xətt üzrə gedir. Burada mənfi heç nə yoxdur. Problem odur ki, bəzi dindar valideynlər uşaqlarını zorən qara çadraya bürüyür və onlara azad seçim imkanı etmək şansı vermirlər. Bu mənfi haldır. Son dövrlər həqiqətən də nəinki uşaqlar, eləcə də bir neçə aylıq körpələr valideynləri tərəfindən Aşura mərasimlərinə aparılır. Əksər uşaqlar bu mərasimlərə könüllü şəkildə getmir, valideynlər onları məcburən aparırlar. Görürsən ki, ictimai nəqliyyatda ata və ananın yanında kiçik yaşlı uşaqlar belə mərasimlərə gedirlər. Deyim ki, ağlaşma, kədər olan yerə uşaqların aparılması düzgün deyil. Bilirsiniz ki, Aşura mərasimləri Azərbaycanda xüsusi şəkildə qeyd edilir. Burada mərsiyələr, nöhələr oxunur, ağlaşma olur. Bu da sözsüz ki, uşaqlara mənfi təsir edir. Biz deyirik ki, uşaqları kədərdən, hüzndən uzaq tutmaq lazımdır və bu kimi amillər uşaqların psixikasına ciddi zərər vurur. Xüsusən də gecə saatlarında uşaqların Aşura mərasimlərinə aparılması düzgün deyil. Ola bilsin ki, kimlərsə bu fikri narazılıqla qarşılayacaq. Amma körpələr, uşaqlar ağrı-acıdan, göz yaşından, hüzr mərasimlərindən uzaq tutulmalıdır. Uşaqların, körpələrin dindar valideynləri tərəfindən Aşura mərasimlərinə aparılması yaxşı hal deyil. Düzdür, bu, valideynin seçimidir, amma onlar uşaqlara münasibətdə həssas olmalıdırlar".

*”Son dövrlər həqiqətən də nəinki uşaqlar, eləcə də bir neçə aylıq körpələr valideynləri tərəfindən Aşura mərasimlərinə aparılır”*

F.Hacıbəyli qeyd etdi ki, bu kimi hallar uşaqlarda bəzi ifrat radikal fikirlərin də formalaşmasına səbəb olur. O bildirdi ki, İmam Hüseyn islam şəhidliyinin ən ünlü simasıdır və haqq-ədalət simvollarından biridir. "Uşaqlar böyüdükdən sonra Aşura mərasimlərinə gedər və orada İmam Hüseyn ucalığı, onun əzəməti və qəhrəmanlığı ilə tanış ola bilərlər. Hələlik isə onların bu mərasimlərə getməsi doğru deyil" - deyə müsahibimiz vurğuladı.

***Leyla QARAXANLI***

# Bağça və məktəblərin qida rasionları necə dəyişdiriləcək?

**Əksər vaxtlarda məktəbəqədər təhsil müəssisələrində və orta məktəblərdə uşaqlara təqdim edilən qida rasionunun tərkibi ilə bağlı ziddiyyətli fikirlər səsləndirilir. Bir qisim həkim və qida üzrə mütəxəssislər hesab edirlər ki, uşaq bağçalarında uşaqlara verilən qidanın əsas tərkibi karbohidratlardan təşkil olunur, bu da uşaqların inkişafına elə də müsbət təsir göstərmir.**



## *Aida Əhmədova: ”Səhiyyə Nazirliyinin hazırladığı və təsdiq üçün Nazirlər Kabinetinə göndərdiyi təklif daha da faydalı olacaq”*

Onlar, həmçinin, qeyd edirlər ki, adıçəkilən müəssisələrdə uşaqlara verilən qidalar elə də keyfiyyətli deyil. Bəzən onlar üçün hazırlanan xörəklərin köhnəlmiş qida məhsullarından bişirildiyi barədə də iddialar var. Hətta bəzi pediatrlar bildirirlər ki, uşaqlarda bağırsaq çöpü və s. xəstəliklərin yaranmasında bağça və məktəblərdə verilən qida məhsullarının rolu az deyil.

Uşaq bağçalarında və orta məktəblərdə verilən qidalarla bağlı yaranmış söz-söhbətlərin qarşısının alınması üçün artıq aidiyyəti dövlət qurumları tərəfindən addımlar atılmaq üzrədir. Belə ki, Səhiyyə Nazirliyi məktəbəqədər təhsil müəssisələri və orta məktəblərdə uşaqlar üçün qida rasionunun hansı formada olması ilə bağlı təkliflər hazırlayaraq Nazirlər Kabinetinə təqdim edib. Bunu mətbuata Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) sədri Qoşqar Təhməzli deyib. Q.Təhməzlinin sözlərinə görə, təkliflər Nazirlər Kabineti tərəfindən təsdiq olunduqdan sonra AQTA həmin qidaların nə qədər təhlükəsiz olduğuna nəzarət edəcək: "Biz tövsiyə üçün "yaşıl", "sarı" və "qırmızı" vərəqələr də hazırlamışıq. Bunları daha sonra ictimaiyyətə açıqlayacağıq. "Yaşıl" vərəqələrdə məktəbəqədər müəssisələrdə və orta məktəblərdə uşaqlar üçün hansı qidaların qəbuluna tamamilə icazə verilməli olduğu qeyd edilib. "Sarı" vərəqələrdə əksini tapan qidalar diqqətli olmağı tələb edən qidalardır. "Qırmızı" vərəqələrdəki qidalar isə uşaqların qida rasionundan tamamilə çıxarılmalıdır. Bu vərəqələrdə qeyd olunanlar Qida Təhlükəsizliyi Agentliyinin mövqeyidir".

Q.Təhməzli bildirib ki, AQTA tərəfindən ölkəmizdə fəaliyyət göstərən 1600-ə yaxın uşaq bağçasının 500-də qida təhlükəsizliyi üzrə monitorinqlər həyata keçirilib. Hazırda bağçalarda yoxlamalar davam edir: "Yaxın zamanlarda bütün bağçalarda aparılan monitorinq barədə ictimaiyyətə məlumat verəcəyik. Hər il olduğu kimi, bu il də Təhsil Nazirliyi ilə birlikdə bütün ümumtəhsil müəssisələrində qidalanma məsələlərinə birgə nəzarət edəcəyik və həmin müəssisələrdə qida təhlükəsizliyinin qorunmasını təmin edəcəyik".

Xətai rayonunda məktəbəqədər təhsil müəssisələri və orta məktəblər üzrə mütəxəssis həkim-pediatr Aida Əhmədova "Bakı-Xəbər"ə bildirdi ki, indiyə qədər bağça və məktəblərdə tətbiq edilən qida rasionu nazirlik tərəfindən verilən rasion olub.

Mütəxəssisin sözlərinə görə, o, Səhiyyə Nazirliyinin hazırladığı yeni qida rasionu haqqında məlumatsızdır, lakin bu rasionun vitaminlərlə zəngin olacağına şübhə etmir. O qeyd etdi ki, ümumiyyətlə, uşaq bağçaları və orta məktəblərdə qida rasionunun dəyişməsi müsbət haldır. A.Əhmədovanın bildirdiyinə görə, hər zaman dövlət bağça və məktəblərin qida rasionunu diqqət mərkəzində saxlayır. "Hesab edirəm ki, Səhiyyə Nazirliyinin hazırladığı və təsdiq üçün Nazirlər Kabinetinə göndərdiyi təklif daha da faydalı olacaq. Ümumiyyətlə, indiyə qədər də tətbiq edilən qida rasionu keyfiyyətsiz olmayıb. Bağçalarda uşaqların qida rasionunda səhərlər kaşa, çay, süd, kəsmik, yağ-pendir, çörək, sonrakı saatlarda alma və digər meyvələr, günorta isə sulu yeməklə yanaşı, makaron, qreçka, ət, dolma, toyuq olur. Yəni indi də uşaqlara verilən qidalar pis deyil, yaxşıdır. Mən bir həkim kimi üç bağçada və 1 məktəbdə uşaqların qida rasionunu hazırlayıram və bu işə nəzarət edirəm. Uşaqlara yemək qaydasında verilir, lakin uşaqların heç də hamısı bu yeməkləri yemək istəmir. Kaprizli uşaqlar çoxdur. Yəqin ki, yeni qida rasionunda daha çox S vitamini ilə zəngin qidalara üstünlük veriləcək. Bu da uşaqların immunitetinin qalmasına səbəb olar və onlar qripə, infeksion xəstəliklərə az tutulurlar. Yəqin ki, yeni rasionda meyvə daha çox olar. Bağçalar və orta məktəblər üçün qida rasionunun yenilənməsi və zənginləşdirilməsi çox müsbət olar".

*”Yəqin ki, yeni rasionda meyvə daha çox olar”*

A.Əhmədovanın bildirdiyinə görə, orta məkəblərdə isə yemək bişirilmir, sudan tutmuş, qida məhsullarına qədər hamısı paketlənmiş şəkildə gəlir. "Yeni rasion müəyyən edildikdən sonra bunun bizim üçün də faydası olacaq, biləcəyik ki, uşaqlara hansı qidanı yazacağıq, hansını yazmayacağıq. Nazirliyin məsləhət gördüyü məhsulları yəqin bundan da keyfiyyətli olar. Biz isə hazırkı rasionu olduğu kimi təqdim edirik" - deyə mütəxəssis qeyd etdi.

***İradə SARIYEVA***

# Klinikalarda həkim qəbulunun qiyməti 50-dən 100 manata qaldırıldı

**Son dövrlər Azərbaycanda özəl xəstəxanaların sayı getdikcə artmaqdadır. Təbii ki, hər klinikada analizlər, həkim qəbulu üçün müəyyən məbləğ ödənilməlidir. Həkim qəbulunun qiyməti ildən-ilə dəyişir. Həmin həkim az da olsa tanınırsa, el arasında məşhurdursa, onun qəbuluna yazılmaq üçün daha artıq məbləğ ödəmək lazımdır.**



## *Adil Qeybulla: "Bu gün həkimlərin anormal qiymətlər qarşılığında xəstə qəbulu həyata keçirməsi tibbi sığortanın olmamasından irəli gəlir"*

İki-üç əvvəl həkim qəbuluna yazılmaq üçün 30 manat ödəniş olunurdusa, ötən il bu məbləğ 50 manata yüksəldi. Bu ildən isə həkimlər xəstə qəbulu üçün 80-90-100, 80 manata olanlar isə 120 və daha yuxarı ödəniş olunmasını tələb edirlər.

Sosial şəbəkədə özəl klinikalarda çalışan, qəbulu 100-150 manatı keçən həkimlərin ilkin siyahısı açıqlanıb:

1. Azər Fərəc - 112-177 AZN - Fetal ultrasonoqrafiya üzrə Azərbaycanın 1 nömrəli peşəkar mütəxəssisdir. Özəl klinikada çalışır, bu məbləğə hamilənin 2 dəfə dopleri daxildir. Məbləğ birinci qəbulda ödənilir.

2. Zakir Əliyev - 150 AZN - Azərbaycan Tibb Universitetinin nevrologiya kafedrasının professoru. Həm dövlət, həm özəl klinikada çalışır. Uşaq nevroloji xəstəlikləri üzrə bir nömrəli həkim hesab edilir.

3. Uzman psixiatr İkram Rüstəmov - 120 AZN - Daha çox uşaqlarda autizm diaqnozunun təsdiqlənməsi üçün valideynlərin seçimi olur. Özəl klinikada çalışır.

4. Dermatoloq Leyla Mirzoyeva- 100 AZN.

5. Mama-ginekoloq Aytən Səfərova - 100 AZN.

6. Psixoloq Babək Bayramov - 100 AZN.

7. Ginekoloq-cərrah Turab Canbaxışov - 95 AZN.

8. Pediatr Erkin Rəhimov - 90 AZN.

9. Ginekoloq Natiq Məhərrəmov - 90 AZN.

Ekspertlərin fikrincə, həkimlərin yüksək məbləğ qarşılığında xəstə qəbul etməsinin səbəbi icbari tibbi sığortanın tətbiq olunmaması ilə bağlıdır.

Tibb elmləri doktoru, professor Adil Qeybulla "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Azərbaycanda bu sahədə çox ciddi problemlər var. Televiziya ekranlarında, sosial şəbəkələrdə həkim reklamları dünyanın heç yerində yoxdur: "Axı nəyə xidmət edir bu reklamlar? Həkim reklamı ancaq korporativ maraqlara xidmət edir. Hesab edirəm ki, bu reklam məsələsi peşəkarlıqla ziddiyyət təşkil edir. Dünyanın hər yerində hansısa bir yeni müalicə üsulu olanda xəstələrə məlumat verilir. Əslində, şou xarakterli reklamlar pul üçündür və heç kim inkar etmir ki, bu çox baha başa gəlir. Sonra isə bu reklama verilən pullar xalqın belinə yüklənir. Həmin o qəbul pullarını qaldıran və əlçatmaz edən də bu hallardır. Digər tərəfdən, insanlar özləri də aldanmamalıdırlar. İnsanlar reklama getməməli, məlumatlı olmalıdırlar. Ümumiyyətlə, peşəkar həkim heç vaxt reklama getməz".

## *"Hər kəs üçün hər bir həkim əlçatan olmalıdır"*

Ekspertin fikrincə, bu gün həkimlərin anormal qiymətlər qarşılığında xəstə qəbulu həyata keçirməsi tibbi sığortanın olmamasından irəli gəlir. Tibbi sığorta olarsa, xəstə istədiyi həkimin qəbuluna rahatlıqla düşə bilər: "Əhalinin dövlət xəstəxanalarına bir o qədər də etibarı qalmadığı üçün, özəl klinikalardakı yüksək qiymətə də olsa, həkimlərin qəbuluna yazılmalı olurlar. Bu gün Azərbaycanda özəl sektorun xüsusi çəkisi olduqca yüksəkdir. Dünyanın heç bir yerində özəl tibb sektoru bu qədər güclü inkişaf etməyib. Sosial dövlətlərdə, xüsusilə Avropa ölkələrində, Almaniya, İngiltərədə özəl sektor tibbin maksimum 5 faizini təşkil edir. Azərbaycanda isə bu göstərici 60-70 faizdir.

Özəl sektorun da iş prinsipi hamıya məlumdur. Onlar öz qiymətlərini özləri müəyyənləşdirirlər və dövlətin buna müdaxilə etməyə ixtiyarı yoxdur. Bu səbəbdən icbari tibbi sığorta olmalıdır ki, xəstə məhz bundan yararlana bilsin".

A.Qeybullanın fikrincə, Azərbaycan tibbində rəqabət mühiti yoxdur: "Əslində, özəl klinikalar arasında da sağlam rəqabət getməlidir. Bir çoxu təklif edir ki, qəbulu baha qiymətə olan tanınmış həkimlər ayda bir dəfə olmaq şərtilə, imkansız ailələr üçün pulsuz qəbul təşkil etsə, yaxşı olar. Xeyr, bu olmamalıdır. Çünki bu, çıxış yolu deyil. İnsanları, problemi olan bir xəstəni ələbaxımlı etmək lazım deyil, insanı köməyə alışdırmaq düzgün olmaz. Hər bir insanın axı hüququ var. Bu hüquqlarından istifadə etməlidir. Gözləməməlidir ki, kimsə pulsuz qəbul keçirsin və o da bundan istifadə etsin. Hər kəs üçün hər bir həkim əlçatan olmalıdır. Vətəndaşın icbari tibbi sığortası olmalıdır ki, o, bu sığorta ilə gedib istədiyi həkimin qəbuluna düşsün".

***Günel CƏLİLOVA***

# Yığma komandanın əcnəbi məşqçisi məsələsində Azərbaycan futbolunun bəxti heç gətirmir...

**Futbol üzrə Azərbaycan millisi AVRO-2020-nin seçmə mərhələsində dördüncü oyununu keçirib. Səfərdə Xorvatiyaya 1:2, evdə Macarıstana 1:3, Slovakiyaya isə 1:5 hesabı ilə uduzan yığma komanda Uels kollektivinin qonağı olub.**



## *Kənan Məstəliyev: "Yurçeviç karyerasında heç vaxt baş məşqçi olmayıb"*

Kardiff şəhər stadionunda baş tutan matç meydan sahiblərinin qələbəsi ilə yekunlaşıb - 2:1. Bununla da, baş məşqçi Nikola Yurçeviçin rəhbərliyi altında çalışdırılan futbol millimiz seçmə mərhələdəki dördüncü oyununda da uduzub. Bu qənaətə gəlmək olarmı ki, milliyə gətirilən bu əcnəbi məşqçi ilə də bağlı bəslənən ümidlər özünü doğrultmayıb?

Tanınmış futbol şərhçisi Kənan Məstəliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, son oyunda millimiz bir qədər normal futbol oynasa da, məğlubiyyətə xal verilmədiyindən, yekun nəticəni əsas götürməliyik: "Uelsin tərkibində dünyanın ən bahalı klublarında forma geyinən oyunçular təmsil olunsa da, onlar elə də yüksək səviyyəli, yeni bizi əzəcək səviyyədə oyun nümayiş etdirmədilər. Qapımıza buraxılan hər iki qol futbolçuların hazırlığının yaxşı səviyyədə olmaması səbəbindən baş verdi. Birində sırf qapıçının, digərində isə müdafiəçilərin kobud səhvləri nəticəsində qapımızda qol gördük. Qrupdakı cədvələ baxanda görünür ki, bizim arxada qalan 4 oyundan hətta bir qələbəmiz belə yoxdur. Biz heç öz meydanımızda keçirdiyimiz görüşlərdən belə heç-heçə ilə ayrıla da bilməmişik. Yeni məşqçinin millimizə nəsə qazandıra biləcəyini əvvəlcədən də təxmin etmirdik. Bunu düşünənlər nə qədər yanlışlıq etdiklərini gördülər. Yurçeviç karyerasında heç vaxt baş məşqçi olmayıb. O indiyə qədər baş məşqçilərin köməkçisi kimi işləyib. Qurban Qurbanovdan sonra Azərbaycan yığmasını çalışdırmaqla bağlı bir çox məşqçilərə bu iş təklif edilsə də, onlar imtina edib. Çünki normal futbol anlayışı olan məşqçi bunun nə olduğunu bilir. Yurçeviç üçün istənilən yığmada baş məşqçi olmaq göydəndüşmə olduğundan, bu təklifi qəbul edib. Onun futbol savadına qəti şübhəm yoxdur. Düzülüşü, əvəzləmələri normal idi. Bizə taktika quran yox, baş məşqçi lazımdı. Yığma komandanı motivasiya edə biləcək bir baş məşqçi. Yəni yeri gələndə oyunçularda düşüncə dəyişikliyini etməyə qadir olan şəxs gərəkdi. Birmənalı şəkildə deyə bilərəm ki, həmin insan Yurçeviç deyil. Hədəf olaraq Azərbaycan yığmasının Avropa 2020-də iştirakını seçmək absurddu. Hərçənd ki, AFA-da bu fikri dilə gətirənlər olub. Komandamız buna qəti hazır deyil.

Qarabağ futbol klubunun əldə etdiyi ardıcıl uğurlar ölkə futbolundakı bərbad durumun üstünü bir qədər örtə bilir, amma futbolumuz acınacaqlı vəziyyətdədir. Ölkənin yüksək liqasında cəmi 8 komanda oynayır, onların da hamısı de-fakto Bakını təmsil edir. Region komandalarımız yox səviyyəsindədir. Birinci divizionda isə vəziyyət həvəskar səviyyəsindədir. Bir sözlə, ölkənin futbol strukturu məhv vəziyyətindədir. Yığma da ölkədəki futbolun piramidasıdı.

Ölkənin futbol strukturundakı vəziyyəti özündə əks etdirir. Bu vəziyyət aradan qalxmasa, yaxşı milli komada gözləməyə dəyməz. Bu məşqçi ilə ciddi uğurlara imza atılacağını gözləməyə dəyməz. Hətta qarşıdakı oyunlardan bir xal qazansaq belə, bizim üçün böyük uğur ola bilər. Aşağıdan yuxarıya ciddi dəyişikliklərə ehtiyac var. Olmasa, faciəvi durum davam edəcək".

***Məhəmmədəli QƏRİBLİ***

# Burun əməliyyatında ölənlərin sayı artır

**Son vaxtlar burun əməliyyatı zamanı ölüm hallarının baş verməsinə tez-tez rast gəlirik. Bir neçə gün öncə Daxili İşlər Nazirliyi (DİN) hospitalının əməkdaşı rinoplastikanın növbəti qurbanına çevrilib. Tibb bacısı vəzifəsində çalışan, 1971-ci il təvəllüdlü Sevinc Qəribova sentyabrın 3-də cərrah İdrak Əhmədov tərəfindən keçirilən burunda çəpər əyriliyi üzrə əməliyyatdan sonra ölüb.**



***Rasif Bağırov:** "Burun əməliyyatlarının bəzilərinin ölümlə nəticələnməsi həkim səhlənkarlığı səbəbindən baş verir"*

İlkin diaqnozda ölümün ağciyər arteriyasının tromboemboliyası nəticəsində baş verdiyi qeyd olunur.

Qeyd edək ki, oxşar hadisə paytaxtda bu ilin aprelində də baş verib. 1992-ci il təvəllüdlü Gülyaz Hacıyeva çəpər əyriliyi üzrə üç əməliyyat keçirdikdən sonra qan itirərək 18 apreldə dünyasını dəyişib. Azərbaycanda burun əməliyyatı zamanı ölüm faktları daha öncə də dəfələrlə qeydə alınıb.

Ölkəmizdə burun əməliyyatı, rinoplastika geniş yayılıb. Son zamanlar bir neçə gənc və yeniyetmənin burun estetik əməliyyatından sonra dünyasını dəyişdiyinin şahidi olmuşuq.

Müşahidələr də onu göstərir ki, illər öncə Amerika, Avropa, İranda dəb halını alan plastik əməliyyatlar artıq Azərbaycanda da sürətlə artmağa, adiləşməyə başlayıb. Nəticədə gözəllik qurbanı olanların sayı da artmaqdadır. Əgər əvvəllər şou-biznes nümayəndələri, sənətçilər estetik əməliyyatlara üz tuturdularsa, hazırda sadə insanlar da buna maraq göstərirlər. Bəzən bu əməliyyatlar üçün banklardan kredit götürüb bıçaq altına uzananlar az deyil. İnsanlar keçirəcəyi estetik əməliyyatların onlara həyatı bahasına başa gələcəyini, ölüm risqini bilə-bilə yenə də bu addımı atırlar. Araşdırmalara görə, ölkəmizdə burun əməliyyatının qurbanı olanlar daha çox 18-25 yaşlı gənclərdir. Nəticədə bəzən gənclər nəinki mövcud olan gözəlliklərini, hətta həyatlarını itirirlər.

Mövzu ilə bağlı fikir bildirən həkim-ekspert Rasif Bağırov qeyd etdi ki, istənilən şəxs evdə və yaxud xəstəxanada dünyasını dəyişirsə, mütləq bu, məhkəmə tibbi ekspertizanın subyekti olmalıdır: "Bu o deməkdir ki, ölümün səbəbi araşdırılmalı, diaqnoz qoyulmalı, sonra rəy verilməlidir. Onu da deyim ki, dünya ölkələrində şəxs estetik əməliyyata girməzdən əvvəl psixoloq və hüquqşünasla danışılır, ümumi müqavilə imzalanır, daha sonra estetik əməliyyat aparılır. Çünki müraciət edənlər xəstə sayılmır, onlar xüsusi statuslu pasientlərdir. Yəni bu pasientlər əməliyyata girməsələr də, sağlamlığı təhlükə altında olmur. Yaxşı olar ki, ölkəmizdə də estetik əməliyyata girməzdən əvvəl mütləq psixoloqla məsləhətləşmə aparılsın. Burun formasını dəyişdirmək istəyən şəxsi psixoloq bu istəyindən daşındıra bilər.

*"Çəpər əyriliyi ilə bağlı edilən əməliyyatlarda ölüm hallarının olma ehtimalı çoxdur"*

Bəzən burun çəpəri əyriliyi, bu zaman tənəffüs almaq çətinləşir və yaxud doğuşdan sonra bəzi qadınların qarın nahiyələrində estetik deformasiya olur ki, bu zaman korreksiyaya ehtiyac var, bunlar psixoloji gərginlik gətirir və sairə. Xarici ölkələrdə bu məsələni psixoloq həll edir. Amma təəssüf ki, Azərbaycanda pasient birbaşa estetik cərrah ilə təmasda olur, əməliyyata girir və bəzən bu, xoşagəlməz halla, ölümlə nəticələnir. Bu məsələ xarici ölkələrdə olduğu kimi tənzimlənmədiyindən, hələ də bu sahədə problem yaşayırıq".

Ekspertin sözlərinə görə, burun əməliyyatlarının bəzilərinin ölümlə nəticələnməsi həkim səhlənkarlığı səbəbindən baş verir: "Çəpər əyriliyi əməliyyatı zamanı baş verən ölüm halları isə burunda əyriliyin kəskin olması və sümüyün çıxarılması zamanı arteriyaların zədələnməsi nəticəsində baş verən qanaxmalar səbəbindən olur. Çəpər əyriliyi ilə bağlı edilən əməliyyatlarda ölüm hallarının olma ehtimalı çoxdur. Bu əməliyyat zamanı xəstə əksər hallarda qanaxmadan ölür. Plastik burun əməliyyatlarında isə çox az hallarda ölüm faktı baş verir. Bunun səbəbi də, qeyd etdiyim kimi, həkim səhlənkarlığı olur.

Bəzi həkimlər hətta çəpər əyriliyi zamanı xəstəni plastik əməliyyat olmağa meylləndirir. Onlar xəstələrə lazım olan diqqəti göstərmirlər. Plastik burun əməliyyatları normalda 4 saat çəkməlidir. Lakin bizim həkimlər eyni gündə bir neçə əməliyyata daxil olurlar və 2 saata işlərini tamamlayırlar. Bəziləri özlərini peşəkar hesab edərək bu addımı atırlar, bəziləri də çox pul qazanmaq üçün. Normalda həkim bir həftədə ən çoxu 4 burun əməliyyatı icra etməlidir. Bu, hobbi deyil, insan həyatıdır".

*Günel CƏLİLOVA*

# Sabirabadda qara yara yenidən peyda olur

**Məlum olduğu kimi, sentyabrın 9-da Sabirabadda iki nəfər qara yara xəstəliyinə yoluxub. Ət satışı ilə məşğul olan 2 nəfər, Sabirabad rayonunun Qaragüney və Həşimxanlı kənd sakinləri qara yara xəstəliyinə yoluxublar.**



***Yolçu Xanvəli:** "Bəzən heyvanlar arasında qara yara xəstəliyinə qarşı peyvəndləmədən kənarda qalma halları da qeydə alınır"*

Xəstəliyə yoluxan şəxslər Sabirabad Rayon Mərkəzi Xəstəxanasının infeksion şöbəsinə yerləşdiriliblər. Qaragüney kənd sakininin kəsdiyi heyvanda qara yara xəstəliyi aşkar edilib. Həmin heyvanın əti Şirvan şəhərində fəaliyyət göstərən qəssablardan birinə satılıb. Qəssabın bildirdiyinə görə, ət sümükdən ayrılıb və hazırda hansı məqsədlər üçün istifadə olunduğu aydınlaşdırılır.

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinə (AQTA) Səhiyyə Nazirliyindən Sabirabad rayonu Qaragüney və Həşimxanlı kənd sakinləri Muradov Yunis Möhübbət oğlu və İsgəndərov Rəvan Ülvi oğlunda qara yara xəstəliyi ehtimalı ilə bağlı daxil olan məlumat əsasında agentliyin mütəxəssislərindən ibarət araşdırma qrupu yaradılıb və hadisənin baş verdiyi əraziyə artıq ezam olunublar.

Qeyd edək ki, bu il iyul ayının 25-də Sabirabadda iki nəfər qara yaraya yoluxub. Onlardan biri iyulun 29-da dünyasını dəyişib.

Adıçəkilən xəstəliyin daha iki nəfərdə qeydə alınması əhali arasında qara yara xofunu artırıb. Xəstəliyin ət satışı ilə məşğul olan şəxslərdə aşkarlanması isə qara yaranın heyvanlar arasında yayılması ilə bağlı narahatlıq yaradır.

*"...ildə bir dəfə respublika üzrə mal-qara arasında qara yaraya qarşı vaksinasiya tədbirləri aparılır"*

Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin İnformasiya təminatı, ictimaiyyətlə əlaqələr və beynəlxalq əməkdaşlıq şöbəsinin baş məsləhətçisi Yolçu Xanvəli bizimlə söhbətində bildirdi ki, heyvanlar arasında bu xəstəliyin yayılmasının qarşısını almaq məqsədilə ildə bir dəfə respublika üzrə mal-qara arasında qarayaraya qarşı vaksinasiya tədbirləri aparılır: "Onu da deyim ki, bəzən heyvanlar arasında qara yara xəstəliyinə qarşı peyvəndləmədən kənarda qalma halları da qeydə alınır.

**Heyvanların qara yaraya qarşı vaksin edilməsi fermerlərdən asılıdır. Onlar heyvanlarını vaksin etdirmədikdə, heyvanın bu qorxunc xəstəliyə yoluxması mümkündür".**

*Günel CƏLİLOVA*

№ 160 (4058) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

11 SENTYABR 2019-cu il

www.baki-xeber.com

# İnsan üzlü buzov doğuldu...



**Argentinaın Santa Fe əyalətində qeyri-adi hadisə baş verib.**

"Publika.az" xəbər verir ki, Villa Ana kəndində insan üzünə bənzər üzlə buzov dünyaya gəlib. Kiçik burun və ağız quruluşuna malik buzov, sadəcə, bir neçə saat həyatda qala bilib. Yerli baytarın sözlərinə görə, buzovun kəllə sümüyü qüsurlu olub. Buzov doğulandan sonrakı ilk görüntüləri sosial mediada paylaşılıb. Görüntülərdə kiçik heyvanın başını yuxarı qaldırmaqda çətinlik çəkdiyi müşahidə edilir. Genetika alimi Nikolas Maqnaqo bu durumun nadir rast gəlinən genetik mutasiyadan qaynaqlanmış ola billəcəyini deyib.

## 3D printer ilə saç istehsal edilib

**Son dövrdə saç əkilməsi məsələsində mühüm irəliləyişlər baş verərkən, 3 ölçülü printer bu sahəyə də öz imzasını atdı. Laboratoriya şəraitində 3D printer ilə saç istehsal edilib.**

3D printer ilə saç istehsalı necə aparılır? "Chip.az" bildirir ki, Kolumbiya Universitetinin tədqiqatçılarının apardığı işlərlə bir ilkə imza atıldı. 3 ölçülü yazıçı xüsusi olaraq, hazırlayan tədqiqatçılar, saç nümunəsini bu printer ilə istehsal etməyi bacardılar. Layihədə könüllülərdən alınan saç nümunələri dəriyə əyildi. 3 ölçülü printer ilə saysız - hesabsız saç nümunələri istehsal edilə və 3 ölçülü printer saç əkilməsində bir nömrəli seçim ola bilər. Beləliklə, bədənin başqa hissəsindən tük alaraq, aparılan əkilmə prosesi artıq tarixə qarışır. Klinik testlərin ardından yeni metodun mümkünlüyü məsələsində daha çox iş görüləcək.



## Güzgünü yataq otağında niyə saxlamaq olmaz? - Alimlərin araşdırması



**Alimlər maraqlı bir araşdırma aparıblar və məlum olub ki, yataq otağında güzgü saxlamaq insan sağlamlığına mənfi təsir göstərir.**

"Ölkə.az" xəbər verir ki, araşdırma zamanı eyni zamanda güzgünün insana dünyadakı xəbərləri çatdırdığını öyrəndiklərini bildiriblər. Eyni nəzəriyyəni astroloqlar da dəstəkləyiblər. Rəvayətə görə, insan yatarkən maddi və mənəvi aləmlər arasındakı ara boşluğunda olur. Bu zaman ruhu evin ətrafında gəzir və bir güzgüyə rastlaşandan sonra digər aləmlərə keçir. Bunun nəticəsində, hətta uzun bir istirahətdən sonra, bir şəxs yorğun və ya hətta əzilmiş və göyərmiş vəziyyətdə oyana bilər. Buna görə də, mütəxəssislər güzgünü yataq otağında saxlamağı məsləhət bilmirlər.

## Elan

Böyükkişiyev Elşən Əli oğlunun adına, Abşeron rayonu, Xırdalan şəhəri, Quşçuluq Y/M, 2-ci küçə, dalan 3, ev 33 ünvanının qeydiyyat vəsiqəsi (çıxarış) itdiyi üçün etibarsız sayılır.

Səfərov Anar Arif oğlunun adına əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

Hacıyeva Sevda Azər qızına Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

İsmayılov Natiq Fazil oğlunun adına, "Yayla MTK"ya məxsus möhür və ştamp itdiyi üçün etibarsız sayılır.

Məmmədli Pərvin Etibar oğluna Bakı Mühəndislik Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Cəfərov Tefur Hüseynağa oğluna Bakı şəhəri, Xəzər rayonu, Mərdəkan qəsəbəsi, 804 E saylı sahəyə verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

Paşayev Yusif Tahir oğluna Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Baş Şabalud kənd sakini Abdullayev Akif Ziyəddin oğlunun adına verilmiş AN:459918, AN: 459779 saylı torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız hesab edilir.

**Azərbaycan Texniki Universitetinin MMN kafedrasının professor-müəllim heyəti Eyyub Hüseynova qızı Xumar Hüseynovanın vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!**





**Qoç** - Eyni vaxtda bir neçə mühüm mövzuda və ya istiqamətdə yeniliklər yaşana bilər. Planlar dəyişə bilər. Yaxın ətrafınızdakı insanlara qıcıqlanmayın. Səbrli olun, təmkinli davranın.



**Buğa** - Qarışıq, laübalı gündür. Yaşanan olayların təfərrüatları aydın olmasa da, onların zahiri axarı uğur vəd edir. Maraqlarınızın təminatı istiqamətində yetərincə irəliləyə bilərsiniz. Çətinliklər yaransa da, onları qət edin. Nüfuzlu insanın yardımı sizə kömək edəcək.



**Əkizlər** - Əvvəlki günün ruhu və təmayülləri davam edir. Lakin keçmişin enerjisindən qurtulun. Sürətlə fəallaşan və planlaşdırılmamış şəkildə məğzini dəyişə biləcək ünsürü nəzarətdə saxlayın.



**Xərçəng** - Planlarınız dəyişə bilər. Hansısa mövzu aktuallaşacaq, sürətli müdaxilə və aktiv fəaliyyət tələb edəcək. Təşkili işə ehtiyac var. Yaxın ətrafınızdakı insanlardan birini birgə fəaliyyətə dəvət edin.



**Şir** - Maraqlarınızı reallaşdırmağa çalışın. Süst və ətalətli olsanız, mühüm məqamı əldən buraxa bilərsiniz. Çoxdan bəri gerçəkləşdirmək istədiyiniz plan çərçivəsində konkret addımlar atmaq üçün şans yaranıb.



**Qız** - Hövsələsizlik və tələskənlik etməyin. İşdə və şəxsi həyatda dəyişikliklərlə yenilikləri mümkün qədər sürətlə həyata keçirməyə can atmayın. Səhv riski çoxdur. Həmkarların sözlərinə qulaq asın.



**Tərəzi** - Səhər saatlarına səmərəli çalışaraq başlayın. Əməyinizin məhsuldar olmasına can atın. Amma özünüzü çox yormayın. Prioritetləri müəyyənləşdirin, daha mühüm saydığınız işi seçərək onu yerinə yetirməyə başlayın.



**Əqrəb** - Bu gün emosional və parlaq hadisə baş verəcək. Romantika, güclü hisslər və həyəcanlar, gözlənti̇lər ola bilər. Xərclərə, məsrəflərə, bir sıra insanlarla təmasların qurulmasına hazırlaşın.



**Oxatan** - Qapalı danışıqlar, intriqalardan imtina edin. Ailə üzvləriniz, şərik və dostunuzdan gizli iş görməyə can atmayın. Məxfi, sirli, mübhəm məqamlara marağınız çox olsa da, emosiyalarınızı cilovlayın.



**Oğlaq** - Böyük emosional gərginlik yaşayacaqsınız. Yaxın ətrafınızdakı insanlar sizdən yardım və diqqət gözləyirlər. Aqressiv və sərt olmayın. Mümkün qədər çox işlər görün, həyəcana və nigaranlığa vaxt qoymayın.



**Dolça** - Emosional olmayın, hisslərinizin əsiri olmayın. Konstruktiv və zəruri hesab etdiyiniz addımları atın. Bitkin qərarlar qəbul edin. Hadisələrin axarına sərt müdaxilə etməyin.



**Balıqlar** - Yaxın ətrafınızdakı insanların hiss və həyəcanlarını anlamağa, onların problemlərini dərk etməyə çalışın. Yeni planlar və əlaqələrin formalaşması, danışıqların aparılması, ideyaların təqdimatı üçün uğurlu vaxtdır.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Hörümçək toru əsasında yeni biokompozit hazırlanıb



**Sankt-Peterburq Milli İnformasiya Texnologiyaları, Mexanika və Optika Universitetinin və İsveçin SLU Universitetinin alimlərinin birgə araşdırmaları nəticəsində təbii hörümçək torunun proteinləri və optik aktiv nanohissəciklər əsasında yeni biokompozit hazırlanıb.**

"AZƏRTAC" bildirir ki, materialın əsas üstünlüyü onda təbii ipək lifləri və qeyri-üzvi sintetik hissəciklər birləşməsinin olmasıdır. Unikal mexaniki xüsusiyyətlərə malik biokompozit yaxın infraqırmızı diapazonda təhrik zamanı optik cavab verə bildiyindən ondan biotibb sahəsində də istifadə etmək mümkündür.

***Hazırladı: Ramil QULİYEV***

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.